

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycanda multikultural mühit: vahid ailə modeli



13

# "Azərbaycan beynəlxalq gündəliyin bir çox aktual məsələlərinin həllində fəal rol oynayır"

3



SƏS
№ 091 (6774)
25 may 2023-cü il.
Qiymət 60 qəpik

# Üçüncü dünya müharibəsi QAPIDADIR!

*Ötən 14 ay ərzində Rusiya-Ukrayna müharibəsində 600 min insan həyatını itirib, 800 minə yaxın insan isə yaralanıb*



14

## Uşaqların telefonunu hansı proqramlarla izləyə bilərik?



7

## Bəhruz Quliyev: "Media güclü sosial-psixoloji silahdır"



6

## Əmlak bazarında qiymət artımına səbəb nədir?



16

## Qarabağ: Laçının Azərbaycan iqtisadiyyatındakı rolu




7

## Qurtuluş naminə xilas: İrəvanın başqa çarəsi yoxdur...



12

# Azərbaycanın enerji diplomatiyası sahəsində qazandığı uğurlar



## *İLHAM ƏLİYEV: "Enerji təhlükəsizliyi ilə bağlı planlarımızı həmişə gələcəyi nəzərə alaraq tənzimləmişik, çünki mənim atamın baxışı belə olub"*

***Bəli, bu gün müstəqil Azərbaycanı müasir, güclü, davamlı iqtisadi inkişafa malik dövlətə çevirmək üçün ümummilli lider Heydər Əliyev gələcək siyasi-iqtisadi islahatların köklü transformasiyasının əsası olacaq neft strategiyasını müəyyənləşdirdi. Bu strategiya xarici sərmayədarların Azərbaycanın neft yataqlarının işlənilməsinə cəlb edilməsini, xam neftin daşınma yollarının şaxələndirilməsini, neft gəlirlərinin səmərəli idarə olunmasını və Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasını təmin etdi.***

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Şuşadan Azərbaycan xalqına müraciətində 1994-cü ildə "Əsrin kontraktı", 1996-cı ildə "Şahdəniz" qaz-kondensat yatağı üzrə imzalanmış kontrakt bizim bugünkü iqtisadi qüdrətimizi şərtləndirən əsas amil olduğunu deyib.

Ümummilli lideri Heydər Əliyevin uzaqgörənliklə söylədiyi: ""Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl 21-ci əsrdə Azərbaycan xalqının inkişafı, firəvan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, 21-ci əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır",- bu sölər artıq bu gün ölkə Prezidenti İlham Əliyev uğurla, layiqincə davam etdirərək Azərbaycanı dünyanın aparıcı dövlətləri ilə bir sıraya yüksəltdi. Son illər ölkəmizin sosial-iqtisadi, mədəni həyatında, əhalinin maddi rifah halının yaxşılaşdırılması istiqamətində əldə etdiyi uğurlar da məhz düşünülmüş fəaliyyətin nəticəsidir.

Azərbaycan Prezidenti İlham Əliyev mayın 22-də Vilnüsdə Litva Prezidenti Gitanas Nauseda ilə mətbuata bəyanatında bildirib ki, biz bu gün, eyni zamanda, Litvada və Azərbaycanda bərpaolunan enerji növlərinin yaradılması ilə də bağlı fikir mübadiləsi apardıq. Biz gördük ki, bu istiqamətdə də demək olar, paralel şəkildə gedirik: "Həm Litvada, həm Azərbaycanda bu sahəyə çox böyük diqqət göstərilir və hesab edirəm ki, yaxın gələcəkdə bu sahədə də ikitərəfli əməkdaşlıq mümkün olacaq".

Dövlət başçısı onu da vurğulayıb ki, gn gələcək Bakı-Tbilisi-Ceyhan Azərbaycandan olan neft və kondensat, həmçinin Mərkəzi Asiyadan neft sayəsində tam gücü ilə işləyəcək: "Bakı-Tbilisi-Ceyhanın tutumu 50 milyon tondur. Bu, heç vaxt belə olmayıb. Bizim "Şahdəniz"də kondensatımız var. Ümidvaram ki, bu il "Abşeron"dan və bir çox başqa yataqlardan kondensat hasil edəcəyik. Beləliklə, kəmərdə hətta bizim gözlədiyimizdən daha çox kondensat olacaq. Gün gələcək Bakı-Tbilisi-Ceyhan Azərbaycandan olan neft və kondensat, həmçinin Mərkəzi Asiyadan neft sayəsində tam gücü ilə işləyəcək".

### AZƏRBAYCANDA BƏRPA OLUNAN ENERJİ NÖVLƏRİNƏ ÇOX BÖYÜK DİQQƏT GÖSTƏRİLİR

Prezident İlham Əliyev litvalı həmkarı ilə mətbuata birgə bəyanatı zamanı deyib ki, Azərbaycanda bərpa olunan enerji növlərinə çox böyük diqqət göstərilir: "Bu gün, eyni zamanda, Litvada və Azərbaycanda bərpa olunan enerji növlərinin yaradılması ilə bağlı fikir mübadiləsi apardıq. Gördük ki, biz bu istiqamətdə, demək olar ki, paralel şəkildə gedirik. Hesab edirəm ki, yaxın gələcəkdə bu sahədə də ikitərəfli əməkdaşlıq mümkün olacaq".

Azərbaycan Prezidenti İlham Əliyev mayın 22-də Vilnüsdə Azərbaycan-Litva biznes forumunun açılış mərasimindəki çıxışında bildirib ki, hazırda əsas hədəfimiz iqtisadiyyatı şaxələndirməkdir: "Azərbaycan iqtisadiyyatı sabitdir, münbit investisiya şəraiti var və o, təbii sərvətlərə əsaslanır. Lakin hazırda, eyni zamanda, əsas hədəf şaxələndirmədir".

Dövlətimizin başçısı deyib: "Düşünürəm ki, biz iqtisadiyyatımızı xeyli şaxələndirə biləcəyik və enerji sektorundan asılılığı azaldacağıq. Baxmayaraq, enerji sektoru enerji təhlükəsizliyimizdə və Avropanın enerji təhlükəsizliyində öz mühüm rolunu oynamağı davam etdirəcək".

Prezident İlham Əliyev Azərbaycan-Litva biznes forumunun açılış mərasimindəki çıxışında onu da vurğulayıb ki, bu gün biz cənab Prezident Nauseda ilə əməkdaşlıq üçün potensial sahələri geniş şəkildə müzakirə etdik. Prezident onları artıq qeyd etdi. Fikrimcə, potensial həqiqətən var: "Biz bərpaolunan enerji sahəsinə yatırımlar baxımından eyni istiqamətdə gedirik".

Baltik və Xəzər dənizlərində çox böyük külək enerjisi potensialının olduğunu və bu məsələnin hər iki ölkənin gündəliyinə daxil edildiyini vurğulayan Azərbaycan Prezidenti bildirib: "Bizə gəldikdə, bizdə enerji təhlükəsizliyi mövcuddur. Lakin, bununla belə, biz ixrac məqsədləri üçün daha çox təbii qaza qənaət etmək və elektrik enerjisinin istehsalı üçün təbiətimizin günəş və külək enerjilərindən istifadə etmək istərdik. Xüsusən də, nəzərə alsaq ki, ötən ilin iyulunda Avropa Komissiyası və Azərbaycan Enerji sahəsində Strateji Tərəfdaşlıqla bağlı Anlaşma Memorandumunu imzaladılar".

### AZƏRBAYCAN AVROPAYA QAZ İXRACINI 2027-Cİ İLƏDƏK 20 MİLYARD KUBMETRƏ ÇATDIRACAQ

Azərbaycan Prezidenti Azərbaycan-Litva biznes forumunun açılış mərasimindəki çıxışında 2021-ci ildə Avropaya təbii qaz təchizatımız 8 milyard kubmetr olmuşdur, bu il isə 12 milyard kubmetr olacaq və 2027-ci ilə qədər 20 milyard kubmetrə çatdırılacağını deyib: "Fikrimcə, bu, minimal həddi təşkil edir, çünki potensial çoxdur".

Mövcud yataqlardan daha çox qazın hasil edildiyini vurğulayan dövlətimizin başçısı deyib: "Bu yaxınlarda Xəzərdə ən iri yataqlardan birində hasilatın başlanmasını elan edəcəyik".

Azərbaycan Prezidenti, həmçinin bərpaolunan enerji mənbələrinə qoyulan sərmayələrin təbii qaza ixrac məqsədləri üçün qənaət etmək imkanı yaradacağını diqqətə çatdırıb: "Avropanın etibarlı təchizatçısı kimi Azərbaycan bu gün nefti, təbii qazı və elektrik enerjisini ixrac edir. Biz hidrogeni, o cümlədən yaşıl hidrogeni ixrac etməyi planlaşdırırıq. Bütün bunlar bizim Avropa İttifaqı ilə əməkdaşlığımızın strateji çərçivəsinin bir hissəsidir. Biz Azərbaycanın və Avropa Komissiyasının daha yaxın olmaq səylərinə verdikləri daimi dəstəyə görə litvalı dostlarımıza və tərəfdaşlarımıza minnətdarıq".

Bəli, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadənin gücləndirilməsidir. Belə ki, ölkəmizdə bərpaolunan enerji potensialından səmərəli istifadə edilməsi məqsədilə atılmış əsas addımlardan biri 2004-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın qəbul edilməsi olub. Dövlət Proqramının qəbulu bərpaolunan enerji mənbələrinin istifadəsində əsaslı dəyişikliklərin həyata keçirilməsinə və ölkəmizin bu sahədəki potensialının dəyərləndirilməsinə geniş imkanlar yaradıb. Bərpaolunan enerjiyə keçid qısa zamanda baş verə bilməz, bunun üçün uzun illər boyu gərgin iş aparılması, böyük sərmayələr yatırılması tələb olunur. Qaz, neft, kömür kimi yanacaq növləri hələ bundan sonra da uzun müddət enerji balansında aparıcı yer tutacaq. Perspektiv planda Azərbaycan bu prosesin tədricən həyata keçirilməsini hədəfləyir və enerji mənbələrini şaxələndirir. Ənənəvi enerji növlərinə alternativ olaraq "yaşıl enerji"nin inkişaf etdirilməsi həyata keçirilir.

Xəzər dənizi ofşor külək enerjisi baxımından böyük potensiala malikdir. İlkin qiymətləndirmələrə görə, Xəzərin təkcə Azərbaycan sektorunda 157 min meqavat səviyyəsində enerji olduğu hesab edilir. Bu, ölkəmizdəki elektrik stansiyalarının ümumi gücündən 20 dəfə çoxdur. Beləliklə, Azərbaycan karbohidrogen potensialından sonra, Xəzəri yenidən kəşf edir.

Azərbaycan 2030-cu ilədək enerji balansında bərpaolunan enerjinin payını 30 faizə yüksəltməyi hədəfləyir. Bu, ölkəmizdə enerji təhlükəsizliyinin və dayanıqlı iqtisadi inkişafın gücləndirilməsi, habelə ekoloji vəziyyətinin yaxşılaşdırılması baxımından olduqca əhəmiyyətlidir. Məhz Azərbaycanın bərpaolunan zəngin enerji potensialına malik olması dünyanın böyük şirkətləri tərəfindən böyük maraq var. Prezident İlham Əliyevin bildirdiyi kimi, bunu bir neçə amil şərtləndirir: "Hazırda Azərbaycan Energetika Nazirliyi dünyanın bir neçə aparıcı şirkəti ilə müvafiq danışıqlar aparır və yenə də deyirəm, bu, müxtəlif amillərin vəhdətidir. Həm ölkəmizdə sabitlik, əmin-amanlıq, ölkəmizin inkişafı ilə bağlı dünyada çox müsbət fikirlər, yeni həqiqəti əks etdirən fikirlər, siyasətimizin proqnozlaşdırılması və eyni zamanda, güclü sənaye potensialı, iqtisadi müstəqillik, enerji təhlükəsizliyinin təmin edilməsi və hazırlıqlı kadr potensialı var. Yəni, bunlar əsas amillərdir. Bu amillər istənilən investor üçün böyük əhəmiyyət kəsb edir".

### PREZİDENT İLHAM ƏLİYEVİN MÜƏYYƏN ETDİYİ MÜASİR İNKİŞAF STRATEGİYASINDA QARABAĞIN "YAŞIL ENERJİ" ZONASINA ÇEVRİLMƏSİ MÜHÜM YER TUTUR

Bəli, Prezident İlham Əliyevin müəyyən etdiyi müasir inkişaf strategiyasında Qarabağın "yaşıl enerji" zonasına çevrilməsi mühüm yer tutur. Bu çərçivədə dövlətimizin başçısı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. "Yaşıl enerji"yə keçidlə bağlı atılan mühüm addımlardan da biri də Gülüstan sarayında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təməlinin qoyulmasıdır. Mərasimdə iştirak edən Prezident İlham Əliyev qeyd edib ki, stansiya həm ölkəmizin enerjiyə artan tələbatını ödəyəcək, eyni zamanda, ixrac imkanlarımızı genişləndirəcək: "Biz elektrik enerjisini yalnız ekoloji cəhətdən təmiz mənbələrdən istehsal edirik - təbii qaz, su, günəş və külək. Bir daha demək istəyirəm ki, Azərbaycanda bərpaolunan enerji növlərinin potensialı həddindən artıq böyükdür. Məhz buna görə dünyanın aparıcı enerji şirkətləri indi Azərbaycanla bu sahədə əməkdaşlıq etməyə çox maraqlıdırlar. Əminəm ki, biz yaxın gələcəkdə yeni layihələrin başlanmasına start verəcəyik".

Bəli, Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Azərbaycan enerji resursları ilə zəngin olmasına və dünyada enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq, Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələrindən istifadə hər zaman diqqət mərkəzində olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də ölkəmizdə bərpa olunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarətdir. Xüsusilə, yerin daxili enerjisindən istifadə də hazırda diqqət mərkəzindədir. Prezident İlham Əliyev işğaldan azad edilmiş əraziləri - 10 min kvadratkilometr ərazini "yaşıl enerji" zonası elan etmişdir.

Bir sözlə, Azərbaycanın enerji diplomatiyası sahəsində qazandığı bu uğurlar bir daha təsdiqləyir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu enerji strategiyası müstəqil dövlətimizi beynəlxalq aləmdə etibarlı enerji təchizatçısı kimi bundan sonra da qəbul ediləcək və ölkəmizin enerji potensialı getdikcə yüksək səviyyədə güclənəcək.

**RƏFİQƏ KAMALQIZI**



## "Azərbaycan beynəlxalq gündəliyin bir çox aktual məsələlərinin həllində fəal rol oynayır"

Azərbaycan sosial və iqtisadi sahələrdə böyük uğurlar əldə edib, dünya arenasında haqlı nüfuz qazanıb, beynəlxalq gündəliyin bir çox aktual məsələlərinin həllində fəal rol oynayır. AZƏRTAC xəbər verir ki, bu fikirləri Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda ifadə edib.

Məktubda vurğulanır ki, Rusiya-Azərbaycan münasibətləri müttəfiqlik qarşılıqlı fəaliyyəti səviyyəsinə yüksəlib, müxtəlif istiqamətlərdə konstruktiv ikitərəfli əməkdaşlıq dinamik şəkildə inkişaf edir. "Əminəm ki, biz birgə səylərlə dost xalqlarımızın rifahı naminə tərəfdaşlıq əlaqələrinin bütöv kompleksinin gələcək inkişafını təmin edəcəyik", - deyə Rusiya Prezidenti bildirib.

## İqtisadi Şuranın növbəti iclası olub

Dünən Azərbaycan Respublikası İqtisadi Şurasının növbəti iclası keçirilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində cari ilin ötən dövründə iqtisadi vəziyyət, qlobal və regional iqtisadi proqnozlar, Azərbaycanda 2023-cü il və ortamüddətli dövr üçün sosial-iqtisadi artım proqnozları, o cümlədən neft-qaz sektorunun proqnozları, habelə vergi inzibatçılığının təkmilləşdirilməsi, investisiya təşviqi və iqtisadi sahədə şəffaflığın təmin edilməsi ilə bağlı dəyişikliklərin layihəsi, Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin indikatorları üzrə görülmüş işlər, icra olunmalı tədbirlər və digər cari məsələlər müzakirə olunub.



İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun məruzəsi və "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya"nın Katibliyinin hesabatı dinlənilib. İclasın yekununda müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

## Kanadalı parlamentari: "Azad olunmuş ərazilərdə aparılan işlərin miqyası heyrətamizdir"

Azad olunmuş ərazilərdə aparılan işlərin miqyası heyrətamizdir. Burada "yaşıl şəhər" konsepsiyası və digər layihələr tətbiq olunur, onlar da öz növbəsində cəmiyyətdəki çağırışları həll etməyə kömək göstərir. Zəngilanda böyük yenidənqurma işləri aparılır. Bu işlər bu ərazilərdə gələcək və dayanıqlı cəmiyyətin yaranmasına töhfə verə bilər. Bu sözləri AZƏRTAC-a müsahibəsində Kanada parlamentinin üzvü Con Aldaq deyib.

O qeyd edib ki, kanadalılar Azərbaycanın istifadə etdiyi "Ağıllı şəhər" konsepsiyasını öz ölkələrində tətbiq etməyə çalışırlar. "Azərbaycan "Ağıllı şəhər" konsepsiyasının necə praktik və mükəmməl olduğunu öz nümunəsində göstərib. Zəngilan aeroportu bu ərazilərin gələcək turizm imkanlarının inkişafı üçün vacib amildir. Bu hava limanı olduqca müasir və gözəldir", - deyə parlamentari vurğulayıb.



# Pyotr Petrovski: "İrəvanın KTMT-dən çıxmaq oyunları buna hesablanıb"

***Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxması məsələsi əvvəllər müzakirə olunsa da, hazırda bu məsələ gündəmdə deyil. Bunu xarici işlər nazirinin müavini Mnatsakan Səfəryan bu həftə parlamentdə jurnalistlərin ER Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın İrəvanın KTMT-dən çıxmaq məsələsini əvvəllər müzakirə etdiyi barədə son sözlərini şərh etmək xahişinə cavab olaraq bildirib.***



"Bu məsələ nə vaxt müzakirə olunub, Qriqoryanın özündən soruşmaq daha düzgün olar, amma ola bilsin ki, bu, ötən ilin sentyabr eskalasiyasından sonra olub. Sonra bunu etməmək və birlikdə işləmək qərarına gəldilər",- o deyib. Diplomat xatırladıb ki, Ermənistan tərəfi öz suallarını KTMT-nin noyabrda İrəvanda keçirilən sammitində təqdim edib.

"İşlər davam edir. Cənubi Qafqazdakı vəziyyətlə bağlı da müzakirələr aparılacaq, bu barədə əlavə məlumat verəcəyik. Vəziyyət mürəkkəbdir və biz KTMT-nin üzvü olmaqla, həm də öhdəliklərimiz var, ümid etməkdə davam edirik ki, işimiz müəyyən nəticələrə gətirib çıxaracaq",- Ermənistan xarici işlər nazirinin müavini bildirib.

Gələcəkdə KTMT-dən çıxmaq məsələsinin qaldırılıb-qaldırılmayacağı ilə bağlı suala nazir müavini cavab verib ki, hər şey konkret vəziyyətdən asılıdır.

İrəvanın Rusiya XİN-in Ermənistan ərazisində KTMT missiyasını yerləşdirməyə hazır olması ilə bağlı bəyanatlarına münasibətinin necə olduğunu soruşduqda, Səfəryan respublika rəhbərliyinin mövqeyini xatırladıb: təşkilat vəziyyətə siyasi qiymət verməlidir. Burada isə söhbət açıq-aydın ondan gedir ki, guya Azərbaycan 2022-ci ilin sentyabrında Ermənistan ərazisinin bir hissəsini işğal edib və onu "işğal etməkdə" davam edir.

Bəli, İrəvanın KTMT-yə iddiaları ortadan qalxmayıb. Ancaq gördüyümüz kimi, bəzi ümidlər qalır. Ancaq bütün bu vəziyyət qəribə görünür. Bəzi bazarlıqlar gedir. Rusiya Xarici İşlər Nazirliyi bəyan edəndə ki, "Rusiya erməni tərəfdaşlarından respublika ərazisində KTMT missiyasının yerləşdirilməsi məqsədilə əsaslı işi bərpa etmək üçün təşəbbüskar addımlar gözləyir" bəyanatının cavabı təxminən Səfəryanın dediyi kimi olub – deyilir ki, gəlin, açıq etiraf edək, Azərbaycan Ermənistana qarşı təcavüz edib, amma bunu sonra danışarıq. Bu hərbi ittifaqla bağlı İrəvanın son məqsədi və niyyətləri o qədər də aydın deyil.

Bəs, Ermənistan KTMT-dən çıxmaq istəyir, yoxsa hələ də bunu özü üçün təhlükəli hesab edir? İkincisi, Moskva bu ölkəni "buraxmağa" hazırdır, yoxsa bunun KTMT-də mərkəzdənqaçma tendensiyalarına səbəb olacağından və blokun tamamilə dağılacağından qorxur?

Baş verənlərin əsl mənasını dəyərləndirən belaruslu politoloq, "Şimali Avrasiya" İnteqrasiya Araşdırmaları Mərkəzinin eksperti Pyotr Petrovski "Caliber" analitik mərkəzinə prosesi şərh edib. Ekspert hesab edir ki, bu gün Ermənistanın KTMT-dən çıxması məsələsi müzakirə mövzusu deyil. Onun fikrincə, erməni informasiya məkanında daha əvvəl oxşar məsələnin gündəmə gəlməsi isə bir neçə amillə bağlıdır.




"Birincisi, İrəvan Moskvaya təzyiq göstərmək istəyirdi ki, regionda erməni maraqlarının müdafiəsi istiqamətində daha fəal addımlar atsın.

İkincisi, bu, Ermənistanın Qərb tərəfdaşları ilə sövdələşməsi üçün siqnal idi. İrəvan Qərbin Azərbaycanla münaqişənin həllində, o cümlədən Qərb missiyalarının, bəlkə də sülhməramlıların cəlb edilməsi yolu ilə daha dərin qarşılıqlı fəaliyyətə və iştiraka hazır olduğunu nümayiş etdirmək qərarına gəlib.

Üçüncüsü, unutmaq olmaz ki, Ermənistan əhalisinin təxminən dörddə biri bu və ya digər dərəcədə əvvəlki hakimiyyətin- "Qarabağ klanı"nın qondarma ideologiyasını dəstəkləyir. Və bu, Paşinyanın siyasətindən fərqli olaraq, daha radikal və revanşist xarakter daşıyır. Paşinyan bununla özünü daxili siyasi iğtişaşlardan qorumaq qərarına gəlib", - Petrovski qeyd edir. Lakin belə siyasət həm Brüsseldə, həm də Moskva və Vaşinqtonda etimadsızlıq yaradıb,- ekspert deyir.

"Ukrayna işi kontekstində Brüssel və Vaşinqton Rusiyanı Ermənistandan sıxışdırmaq üçün real imkanlar görmədilər və görmürlər, çünki Moskva indi Qərbin onun maraq zonasına nüfuz etməsi vəziyyətində daha sayıqlaşıb. Rusiyanın təsir zonasının daralması və anti-Rusiya koalisiyasının olması vəziyyəti gərginləşdirib.

Moskva üçün Qərblə qarşıdurma kontekstində Cənubi Qafqazın rolu artıb və indi bu region İran və Türkiyəyə "həyat yolu" xarakteri daşıyır. Və onun Ermənistan kimi bəlkə də problemli, lakin yenə də müttəfiq sayılan ölkədən imtina etməsini gözləmək gülünc olardı.

Üstəlik, Moskva getdikcə daha çox başa düşür ki, İrəvanla müttəfiqlik onun Bakı ilə qarşıdurma sxeminə görə qurulmamalı, yeni geosiyasi vəziyyətə görə Azərbaycanla Ermənistan arasında, həmçinin Ermənistan və Türkiyə münasibətlərin normallaşması üçün alət olmalıdır. Bu gün Rusiya Cənubi Qafqazda maraqlar balansını saxlamaqla silahlı qarşıdurmanı aradan qaldırmaqda maraqlıdır. Burada əsas məsələ onunla heç bir əlaqəsi olmayan ölkələrin regiona buraxılmamasıdır. Və bu gün nəinki Böyük Britaniya, Almaniya, ABŞ, Fransa kimi Qərb dövlətləri, hətta məsələn, İsrail də Moskvaya heç bir şəkildə yaramır.

Odur ki, regionda yeni normallaşma üçün ideal sxem 3 böyük oyunçunun (İran-Rusiya-Türkiyə) 3 kiçik oyunçu ilə (Azərbaycan-Ermənistan-Gürcüstan) sabitliyi təmin etdiyi "3+3" formuludur. Bunun fonunda Moskvanın təkcə Qarabağ məsələsində deyil, Tbilisi ilə münasibətlərində də vəziyyəti normallaşdırmaq istəyini görmək olar.

Bu, birbaşa Rusiyanın Şimal-Cənub dəhlizində Cənubi Qafqazdan İran və Türkiyəni Rusiya ilə sabit şəkildə birləşdirəcək ən güclü logistika qovşağı yaratmaq marağına təsir edir. Bu ssenaridə Ermənistan yeni geosiyasi şəraitə görə KTMT ilə yeni əməkdaşlıq formulunu qurmağa, Rusiya isə təşkilatı institusional olaraq gücləndirməyə çalışır. Nizamnaməsinə görə, KTMT Azərbaycanın razılığı olmadan Qarabağ məsələsinə qarışa bilməz, lakin Ermənistanın təhlükəsizlik problemlərini həll edə bilər. Gümrüdə Rusiya hərbi bazasının mövcudluğunu da unutmaq olmaz ki, bu da Moskva üçün müəyyən qırmızı xəttdir. Şəxsi heyətinə təhlükə yaranarsa və ya ona tapşırılan hər hansı tapşırıq həll olunarsa, Rusiya KTMT-dən kənarda birtərəfli reaksiya verəcək.

Bundan çıxış edərək, bu gün nə Rusiya, nə də Ermənistan KTMT formatında ölkələr arasında əməkdaşlıqdan imtina etməkdə maraqlı deyil. Ermənistan Rusiyanın həmin qırmızı xətlərinin harada olduğunu dərk edir və Rusiya Cənubi Qafqazın geosiyasətinin ümumi konturunda Ermənistanın özü üçün əhəmiyyətini anlayır", - belaruslu politoloq hesab edir.

***Tərcümə - Elçin Bayramlı***

***Bu gün dünyanın 3 materikində Ermənistan-Azərbaycan münasibətlərinə dair görüşlər keçirilir, mövqelər ortaya qoyulur, fikir mübadiləsi aparılır. Bir sözlə siyasilər hələ də bəlli olmayan vəziyyətin istiqamətini təyin etmək üçün baş sındırırlar. İlk təəssürat budur ki, həm Vaşinqtonda, həm Brüsseldə, həm də Rusiya ərazisində aparılan danışıqların bir məqsədi var, Azərbaycanın dünya birliyi tərəfindən tanınmış sərhədləri daxilində suveren hüquqlarını bərpa etməkdə Bakıya kömək etmək. Ermənistanda da təxminən belə düşünürlər, amma özlərinə xeyir edən şəkildə. Yəni iki il yarım bundan əvvəlki vəziyyətin yaranmasını. Təbii, nə qədər ki, Ermənistana işğalçı siyasətinə görə sərt cəza verilməyib və bunun bədəlini Ermənistan cəmiyyəti ödəməyib, ermənilərin maksimalist istəyi bundan sonra da fontan vuracaq, özlərini bizimlə tərəzinin bir gözünə qoyacaqlar…***



# Erməni maksimalizmi və Paşinyan

*Ermənistanın baş naziri Qarabağı Azərbaycan kimi tanımağa, hətta KTMT-dən çıxmağa hazırdır*

Vaşinqton, Brüssel görüşünün davamı olaraq Moskvada keçirilməsi nəzərdə tutulan Ermənistan-Azərbaycan danışıqları barədə fərqli fikirlər, yanaşmalar var. Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağda yaşayan ermənilərin hüquq və təhlükəsizliyinə təminat verilməsi, habelə Bakının Ermənistan dövlətinin ərazi bütövlüyünü tanıması müqabilində Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa hazır olduğunu bəyan edib. Eyni zamanda, baş nazir qeyd edib ki, uzunmüddətli sülhü təmin etmək üçün üçüncü tərəflərdən zəmanət tələb olunacaq. Paşinyanın bəyanatlarına əsasən, İrəvanın bu rolda yalnız Moskvanı və ya hətta onun tərk etməklə hədələdiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) gördüyünə əminlik yoxdur. Bu arada Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanla sülh müqaviləsinin bağlanmasını qaçılmaz adlandırıb. İki lider nizamlanmanın gələcək perspektivlərini müzakirə etmək üçün bu həftə Moskvada görüşməlidir.





Ermənistan və Azərbaycan hər bir yüksək səviyyəli təmasda uzun müddətdir davam edən ərazi mübahisəsinin həllinə yaxınlaşır. Bu təəssürat Ermənistanın baş naziri Nikol Paşinyanın son açıqlamalarından formalaşıb. Bazar ertəsi, mayın 22-də Ermənistan hökumətinin başçısı demək olar ki, beş saatlıq mətbuat konfransı keçirdi və bir sıra bəyanatlar verdi ki, onlar dərhal dünya agentlikləri vasitəsilə yayıldı. Sözlərində yenilik az olsa da, Paşinyan bu dəfə hökumətinin irəli sürdüyü əsas tezisləri daha ifadəli səsləndirdi. İlk növbədə, hər kəs diqqəti respublikanın hazırkı hakimiyyətinin Qarabağı Azərbaycanın suveren ərazisi kimi tanımağa kifayət qədər aydın şəkildə ifadə edilmiş hazırlığına yönəltdi.

"Azərbaycan Ermənistanın 29,8 min kvadrat kilometrlik ərazi bütövlüyünü tanıyır. Ermənistan isə Azərbaycanın 86,6 min kvadrat kilometr ərazini tanıyır. Bura Qarabağ da aiddir. Lakin qeyd etmək lazımdır ki, ermənilər Qarabağ ermənilərinin hüquqları və təhlükəsizliyi məsələsinin Bakı-Xankəndi formatında müzakirə olunmasını istəyirlər. Ermənilər bunu belə əsaslandırmağa çalışırlar ki, guya sənəd imzalanandan sonar Azərbaycan Qarabağ ermənilərinin təhlükəsizliyi və hüquqları məsələsini unudacaq və Bakı bundan sonra da etnik təmizləmə və soyqırımı siyasətini davam etdirəcək. Baş nazir Nikol Paşinyan da bu mövqedə olduğunu bildirib. Paşinyan əvvəllər də Qarabağı Azərbaycan ərazisi kimi tanımağa hazır olduğunu bəyan etmişdi, lakin bu fikri birbaşa açıqlamamışdı.

Baxmayaraq ki, əvvəlki mülahizələr İrəvanın gələcəkdə Qarabağ ermənilərinin məskunlaşdığı rayonların Bakının nəzarətinə keçməsindən faktiki olaraq imtina etdiyinə şübhə qoymur. Mayın əvvəlindən Ermənistan-Azərbaycan nizamlanmasında aydın fəallaşma müşahidə olunur. İki ölkənin xarici işlər nazirləri Vaşinqtonda və Moskvada, respublikaların rəhbərləri isə Brüsseldə Avropa İttifaqı Şurasının rəhbəri Çarlz Mişelin nəzarəti altında görüşüblər. Cümə axşamı, mayın 25-də onlar yenidən danışıqlar aparacaqlar, bu dəfə isə Moskvada.

Paşinyanın sözlərinə görə, İrəvan sülh müqaviləsinin mətninə düzəlişlərini Bakıya təqdim edib və qarşılıqlı şərhləri gözləyir. Ümid etdiyini bildirib ki, onlar Vaşinqtonda əldə olunmuş razılaşmalara uyğun olacaqlar. Yəni bu günlərin birində Azərbaycan bizə öz variantını versə və bir neçə gündən sonra ona baxıb görəcəyik ki, sənəd qarşılıqlı güzəştlər məntiqinə uyğundur, niyə də olmasın, növbəti görüşlərdə saziş imzalana bilər.

Lakin iyunun 1-də Kişinyovda Fransa prezidenti Emmanuel Makron və Almaniya kansleri Olaf Şolsun, eləcə də Şarl Mişelin iştirakı ilə beştərəfli danışıqlarda sülh müqaviləsinin imzalanması ehtimalı artıq daha yüksəkdir. Paşinyan da buna inandığını deyib.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın mayın 22-də bildirdiyi kimi, Vaşinqtonda azərbaycanlı həmkarı Ceyhun Bayramovla son danışıqlarda "sülh müqaviləsi layihəsinin daha iki maddəsi" razılaşdırılıb. Neçə maddə üzrə razılaşdırıldığını diplomat dəqiqləşdirməyib, amma əmin edib ki, "bir sıra digər maddələr üzrə birbaşa və səmimi dialoq mümkün olub".

Ermənistanın "Ani" tədqiqat mərkəzinin rəhbəri Tatul Akopyanın fikrincə, Paşinyanın Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanınması ilə bağlı sözləri respublikanın hazırkı hakimiyyətinin Bakı ilə yeni müharibədən qaçmaq cəhdi kimi qəbul edilməlidir: "Ermənistanın beynəlxalq səviyyədə tanınmış sərhədlərinin təhlükəsizliyi. Yəni, məqsəd beynəlxalq ictimaiyyətin şübhə altına almadığı şeyi qorumaqdır".

Ardı Səh. 5



# Erməni maksimalizmi və Paşinyan

Əvvəli-Səh-4

Mayın 22-də Azərbaycan Prezidenti İlham Əliyev də Ermənistanla sülh müqaviləsinin perspektivlərinə münasibət bildirib və belə bir razılaşmanın ortaya çıxmasını qaçılmaz adlandırıb: “Bu işğal nəticəsində bir milyon azərbaycanlı öz doğma yurdlarından qovulub, ərazilərimizin 20 faizə yaxını işğal altında olub. İşğal olunmuş ərazilərdə işğalçılar, demək olar ki, bütün infrastrukturu, binaları, o cümlədən tarixi abidələri dağıdıblar. Biz hesab edirik ki, sülh sazişinin imzalanması qaçılmazdır və öz tərəfimizdən bu məqsədə çatmaq üçün konstruktiv səylər göstərməyə çalışırıq. Təbii ki, bu sülh sazişi beynəlxalq norma və prinsiplərə uyğun olmalıdır”.

İlham Əliyev Litva Prezidenti Gitanas Nauseda ilə görüşdə bildirib və əmin edib ki, İrəvanla sülh danışıqları “son nəticədə Qafqaza uzunmüddətli sülh gətirəcək.

Bu arada Nikol Paşinyan əmin olduğunu bildirib ki, Bakı ilə istənilən razılaşma beynəlxalq təhlükəsizlik təminatları ilə müşayiət olunmalıdır. Lakin onları kimin təmin edəcəyi sual altında qalır. İstənilən halda İrəvanda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına və onunla birlikdə Rusiya Federasiyasına qarşı kifayət qədər iddialar toplanıb. Ermənistan hakimiyyətinin son bəyanatları isə daha çox onu göstərir ki, qarant axtarışının əhatə dairəsi ənənəvi regional oyunçularla məhdudlaşmayacaq. Beləliklə, Nikol Paşinyan Ermənistanın “de-yure KTMT-də iştirakını dayandırmaq və ya dayandırmaq barədə qərar verə biləcəyini” istisna etməyib.

“Amma bu, o zaman baş verəcək ki, biz KTMT-nin Ermənistandan çıxdığını bildirək. Yəni, bu halda heç nə verməyən de-yure iştirakçı statusu bizə yalnız təhlükəsizlik gündəmini başqa ölkələrlə müzakirə etməyə mane olacaq. Sizcə, Ermənistan başqa ölkələrdən silah əldə etmək sahəsində başqa təkliflər almayıb? Əlbəttə, mən etdim, lakin bu imkanlara əngəllər əsasən Ermənistanın KTMT-yə üzvlüyü ilə bağlı olub”, - baş nazir qeyd edib.

Moskvada Nikol Paşinyanın son açıqlaması təmkinli fikir ayrılığı ilə qarşılanıb. Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskovun sözlərinə görə, KTMT iştirakçı ölkələr arasında “nüfuza malikdir”, təşkilatın özü isə “müxtəlif situasiyalarda öz effektivliyini artıq nümayiş etdirib” və “sonrakı inkişaf potensialına malikdir”: “Ermənistanın baş nazirinin bəyanatına gəlincə, o zaman biz təbii ki, erməni dostlarımızla dialoqumuzu davam etdirəcəyik, onlarla KTMT-nin fəaliyyətində gələcək birgə iştirakımız barədə danışacağıq”.

Bu arada erməni ekspert təkid edib ki, “KTMT-nin Ermənistan hakimiyyətinin Azərbaycanla münaqişəyə müdaxilə etmək xahişlərinə cavab olaraq passiv mövqeyi ona gətirib çıxarıb ki, İrəvan nəinki təşkilata öz narazılığını zaman-zaman xatırladır, həm də sülhün mümkün təminatçısı olan digər oyunçulara doğru baxır. “ABŞ və Aİ belə bir tərəf kimi qəbul edilir, lakin onlar hələ bəyanatlardan kənara çıxmayıblar”, - Tatul Akopyan qeyd edib.



Eyni zamanda, ekspertin fikrincə, Paşinyanın sözləri həm “KTMT-ni Azərbaycanın hərəkətlərinə cavab verməyə sövq etmək” istəyini, həm də üçüncü ölkələrdən mümkün silah alınmasına haqq qazandırmaq cəhdini və Aİ-nin peyda olmasını gizlədə bilər. Ermənistan sərhədində mülki müşahidəçilər missiyası.

## “Cənubi Qafqazda təsir mübarizəsində Qərb Rusiyanı sıxışdırır”

ABŞ və Qərb İrəvanla Bakı arasında münaqişənin həllinə son dərəcə mühüm və əhəmiyyətli töhfə verir. Bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib. O, həmçinin bildirib ki, ölkə müəyyən şərtlər daxilində Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa hazırdır. Paşinyan bir müddət əvvəl konkretləşdirmişdi ki, iki ölkənin sovet sərhədləri daxilində bir-birinin bütövlüyünün qarşılıqlı tanınması onlar arasında sülh üçün zəruri şərtdir. Ermənistanın baş naziri Nikol Paşinyan İrəvanda keçirdiyi mətbuat konfransında bir anda bir neçə sensasion bəyanatla çıxış edib. Onun ölkəsi ilk növbədə Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımağa hazırdır. 2020-ci ilin payızında alternativin olmadığı göründü. Qüvvələr nisbəti Azərbaycanın xeyirinə idi. Bunu Paşinyanın belə birmənalı, səmimi etiraf edib. İndiyədək o, bir çox erməni üçün son dərəcə ağrılı bu mövzuda, ən azı, ictimai yerlərdə daha rasional danışırdı.

İkinci gözlənilməz bəyanat isə Rusiyanın rəhbərlik etdiyi hərbi blok olan KTMT-yə üzvlüklə bağlı olub. Paşinyanın obrazlı ifadəsinə görə, “KTMT özü Ermənistanı tərk edərsə” Ermənistan bu təşkilatı tərk edə bilər. Yəni bu, Bakının qəsd etdiyi ərazi bütövlüyünün təmin olunmasına kömək etməyəcək.

Etiraf etmək lazımdır ki, Paşinyan da buna bənzər bir şeyi artıq bəyan edib. Təəccüblü o idi ki, o, bu sözləri elə indi - Rusiya və Azərbaycan prezidentləri ilə cümə axşamı Moskvada planlaşdırılan danışıqlardan bir neçə gün əvvəl təkrarlamaq qərarına gəlib.

Belə görünür ki, Paşinyan Vladimir Putinlə görüş ərəfəsində Moskvanı bir daha qıcıqlandıra, birbaşa cavabdan incəliklə yayına bilməzdi. Ancaq o, bunu etmədi və görünür, kifayət qədər şüurlu tərpənmək qərarına gəlib. Son vaxtlar İrəvan Moskvanın mövqeyindən məyus olduğunu gizlətmir. Əsas iddia ondan ibarətdir ki, Rusiya sülhməramlıları Ermənistan hakimiyyətinin fikrincə, öz öhdəliklərini yerinə yetirmirlər və Bakıya faktiki olaraq Qarabağın “blokadasını” yaratmağa, onu Ermənistandan təcrid etməyə və çoxlu humanitar problemlər yaratmağa icazə veriblər.

Bunun fonunda regionda nüfuz uğrunda geosiyasi mübarizə görünməmiş şəkildə güclənib və bunda Qərb tədricən təşəbbüsü Moskvadan alır. Bu, əsasən, İrəvan və Bakı arasında sülh sazişinin imzalanmasına yönəlmiş vasitəçilik səylərinə aiddir. Bir vaxtlar Rusiya bu sahədə rəqabətdən kənarda idi. Heç bir sülh planı onun iştirakı olmadan həyata keçirilə bilməzdi. Bu gün müzakirələr və məsləhətləşmələr getdikcə daha çox onsuz gedir. Bu, mayın əvvəlində ABŞ-da dövlət katibi Entoni Blinkenin vasitəçiliyi ilə keçirilən Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin üç günlük görüşünə də aiddir. Mayın 14-də Paşinyan, Prezident İlham Əliyev və Avropa Şurasının rəhbəri Şarl Mişelin iştirakı ilə Brüsseldə sammit keçirildi və iyunun 1-nə Kişinyovda planlaşdırılan danışıqların artıq beştərəfli formatda - İlham Əliyev, Paşinyan, Şarl Mişel, həmçinin Fransa prezidenti Emmanuel Makron və Almaniya kansleri Olaf Şolzun iştirakı ilə olacağı gözlənilir.

Göründüyü kimi, bu gün Moskvadan yan keçən təmaslar onun iştirakı ilə müqayisədə daha intensivdir. Həm Kreml, həm də Qərb sözdə Transqafqazda sülhün və gərginliyin azaldılmasının tərəfdarı olsalar da, indiki beynəlxalq şəraitdə onların birgə hərəkət etməyə razılaşacağını təsəvvür etmək çətindir. Burada çoxdan gözlənilən sülh sazişinin hansı danışıqların (Moskva, Kişinyov və ya müntəzəm Brüssel) nəticələrindən sonra rəsmən elan ediləcəyi prinsipial əhəmiyyət kəsb edir. Bu, daha çox kimin öz mövqelərini gücləndirəcəyini və yeni, müharibədən sonrakı şəraitdə Cənubi Qafqazda əsas oyunçuya çevriləcəyini müəyyən edəcək.

**V.VƏLİYEV**

# Bəhruz Quliyev: “Media güclü sosial-psixoloji silahdır”



**“Dövlət kibertəhlükəsizlik sahəsində çox ciddi addımlar atıb. İnsan hüquqlarının qorunması istiqamətində kifayət qədər qanunlarımız var. Yəni, dövlətin məqsədi bəllidir. Amma əsas məsələ cəmiyyətin buna adekvat olaraq cavab verə bilməsidir”. SİA xəbər verir ki, bu sözləri ”Sosial kibertəhlükəsizlik və dezinformasiya” mövzusunda keçirilən tədbirdə SƏS Media Qrupunun təsisçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev deyib.**

B.Quliyev qeyd edib ki, SƏS Media Qrupu artıq bir neçə dəfə kiberhücuma məruz qalıb: ”İllərdir ki, Azərbaycanı sevməyən qüvvələr tərəfindən kiberhücumların ağırlığını üzərimizdə hiss etmişik. Bu cür hücumlar ən çox ideoloji iş aparan resurslara qarşı olur. ”SƏS” adı ilə fəaliyyət göstərən bütün ”YouTube” kanallarımıza kiberhücum oldu. Bir neçə əlavə ideoloji iş aparan televiziyalar da bundan öz payını aldı. Amma hesab edirəm ki, ən çox əziyyəti biz çəkdik. 35 mindən artıq videoçəkilişlərimiz məhv oldu və biz hələ də onları bərpa etməkdəyik. Təcrübə göstərir ki, çox ehtiyatlı olmalıyıq. Çünki bu qarşısıalınmaz bir hərəkatdır. Mətbuat, media güclü sosial-psixoloji silahdır. Bu silahla hətta terror belə törətmək olar”.

*Ləman Əlizadə*

# Ümummilli Liderin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir



“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il mayın 24-də Yeni Azərbaycan Partiyası (YAP) Zəngilan rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Abşeron rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Heydər Əliyev Mərkəzində Ulu Öndərin büstü ziyarət olunub, önünə gül dəstələri qoyularaq əziz xatirəsi ehtiramla yad edilib. Mərkəzdə gənc fəallara müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və misilsiz xidmətləri haqqında geniş məlumat verilib, iştirakçılar eksponat, fotoşəkil və kitablarla tanış olublar.



# Sülh Müqaviləsi: açar kimin cibindədir?

***Əsrlərdir ki, bizə qarşı düşmən kəsilən erməni vəhşiləri üzündən daima qanlı müharibələrin qurumayan oylağına çevrilən doğma Qarabağımızda müharibəni bitirsək də, hiyləgər və bir o qədər də riyakar düşmən heç cür sülh müqaviləsi imzalamağa yaxın gəlmir. Erməni cəmiyyəti yenə faşist və xəstə düşüncəsində qalır: - Azərbaycanlılara nifrət, yenidən torpaqlarımıza göz dikmək. Bədnam qonşularımız sürünənlər sülaləsi kimi rəngini bir neçə dəfə dəyişsə də, düşmən olaraq xislətini qətiyyən dəyişmir.***



Mətləb Salahov

Məsələ aydındır: ermənilər keçən əsrlərdə olduğu kimi, yenə də ənənəvi HİMAYƏÇİLƏRİNDƏN yeni geridönüş planı gözləyirlər və bütün alçaqlığı ilə buna hazırlaşırlar. Son bir neçə həftədə əvvəlcə Vaşinqtonda, sonra da Moskvada aparılan danışıqlar yenə də “qısır” bitdi. Yenə Moskvada Azərbaycan və Ermənistan liderləri arasında növbəti görüş başlayır. Yenə ümidlər, yenə “irəliləyişə doğru bir addım” və sairə və sairə...

Bəs sülh müqaviləsi niyə bağlanmır, hansı detallar sülhə gedən yolu qaratikan kolu kimi bağlayıb durub? Gəlin sülh müqaviləsinə qarşı olan erməni cəmiyyətindən başlayaq.

## Zəhərli daşnak düşüncəsi sülhü təhdid edir!

Sülh əvəzinə müharibəni seçən erməni daşnak sürüsü yenidən qisas müharibəsinə başlamaq, Azərbaycana məxsus olan, minlərlə igid oğullarımızın qanı hesabına düşməndən geri aldığımız torpaqlarımız üzərinə hücum hazırlamaq “eşqi ilə” alışıb-yanır. Erməni radikallar baş nazirin oğlunu qaçırmaqdan belə çəkinmirlər. Mövqelərini açıq ortaya qoyurlar. N.Paşinyanı da qorxudan elə budur. Daşnak sürüsü nə desən edə bilər. Elə etdilər də. Bu yaxınlarda İrəvan küçələrindən birində N.Paşinyanın oğlu Aşotu qaçırmaq istəyiblər, hay-küy qopub. Məlum olub ki, Aşotu oğurlamağa cəhd edən qadın ikinci Qarabağ müharibəsində ölən erməni əsgərin anasıdır. Qadın artıq həbs olunub.

Yəni anlaşılan odur ki, hazırkı erməni cəmiyyəti xəstə düşüncənin əsiri olmaqda davam edir. Heç bir reallıq onları bu xəstə və qanlı düşüncədən ayıra bilmir. Bu, çox-çox düşündürücü detaldır. Ən maraqlısı odur ki, ermənilərin özləri qədər onların qərbdəki dəstəkçiləri də Azərbaycana qarşı ermənilərdən az nifrət hissi ilə yanaşmırlar. Məsələnin ən dramatik tərəfi budur ki, erməni məsələsində Rusiyadakılar qərbdəki düşmənləri ilə eyni düşünürlər. Erməni xisləti amansız düşmənləri bir andaca həmrəy dosta çevirirsə, demək qarşımızdakı düşmən hiyləgər olduğu qədər, həm də dünya gücləri üçün hər zaman işə yarayan qanlı və alçaq nökərdir. Belələrindən heç kim imtina etmir. Mus-mus mustafa, düşmən hiyləgər və qaniçəndir, heç olmasa bu dəhşətli reallığı beyinlərimizə yeridib zaman-zaman gələcək nəsillərə ötürə bilsək...

## Paşinyan necə ələ “oynayır”?

Hakimiyyətini qorumaq və bütün situasiyalardan öz maraqları üçün yararlanmağa çalışan N.Paşinyan isə həm radikal erməni cəmiyyəti ilə, həm də öz maraqları üçün bu yekəqulaq baş nazirdən yararlanmağa çalışan dünya nəhəngləri ilə, sözün əsl mənasında, “rəqs edir”. Cəbhə xəttində törədilən son təxribatlar bu sözlərimi tam əminliklə təsdiqləyir. Bütün “ipləri” Moskvada və qərbdə olan Paşinyan hökuməti müstəqil mövqe sərgiləməkdən, real vəziyyəti ermənilərə başa salmaqdan savayı hər şeylə məşquldur. Son aylar cəbhə xəttindəki qanlı atışmalar, bitib tükənməyən erməni təxribatları özbaşına edilmir. Çünki ermənilərin özlərinə arxa-dayaq bildikləri qüvvələr bədmən qonşularımızı kimə desən “hürdürürlər”. Əslində, erməni cəmiyyətinin elə əsl funksiyası da budur.

O ki qaldı N.Paşinyana, bu adam erməni cəmiyyətinə real siyasəti izah etmir, ya da daşnak xəstəliyinə tutulmuş erməni kütləsinə həqiqəti anlatmağın mümkünsüz olduğunu dərk edib, əvəzində əsrlərdir davam edən erməni faşist düşüncəsinə “yaşıl işıq” yandırır. Özünü erməni ictimai rəyində “sığortalamaq üçün”. Sanki radikallar özləri də bilmədən bu məsələdə N.Paşinyanın “əlinə su tökürlər”. Hiyləgər paşik sanki pianoda yüz ritmə “oynayır”. “Kokeyşn Paşinyan” da az aşın duzu deyil...

Amma N.Paşinyan erməni cəmiyyətinə daha dərin “sürpriz” hazırlayıbmış. Bu dəfə İslandiyada keçirilən Avropa Şurasının Sammitində Azərbaycanın qanuni 86,6 min kvadrat metrlik ərazi bütövlüyünü tanıdığını bəyan edib. Bütün radikal erməni kütləsi də İrəvanda meydanları bağlayıb oturaq aksiyaya keçiblər. Sanki N.Paşinyan əsrlərdir anti-Azərbaycan düşmənçiliyi ilə zəhərlənmiş və üfunət iyi verən erməni beyinlərini asta-asta “təmizləməklə” məşğuldur. N.Paşinyan həm erməni düşüncəsini silib təmizləməklə məşğuldur, həm də özünə yeni dəstək axtarışındadır.

## Dünya gücləri də sülh əvəzinə qanı seçirlər....

Dediyim kimi, bunlar irsən belədirlər, güc, dəstək, maraq haradadırsa, bir andaca ona sitayiş edirlər. Bir ara “paşikcan” Rusiyadan üz çevirib qərbə tərəf gülümsəsə də, cüdoçu Vladimir Putinin tərs “şilləsi” Nikol Varvaroviçin dağ göbələyini xatırladan yekə qulaqlarını al lalə kimi qızartdı. Anladı ki, hər şey qərbdə həll olunası deyil. Bu bölgənin bir də Rusiyası var. Qurama Ukrayna “müharibəsində” çırpınan Moskva hər şeyə rəğmən regiondakı hər şeyə nəzarət edir. Öz təkəbbürü üzündən indi Rusiyanı palçığa batmış ulaq vəziyyətinə gətirən balacaboy V.Putin keçmiş sovet ərazilərindəki heç bir münaqişəni sülhə çevirmək fikrində deyil. Rus dərin dövlətinin daima “parçala hökm sür” siyasəti dəyişilməzdir. V.Putin olmasın, olsun Andrey, Aleksey. Şəxslər, siyasi qüvvələr dəyişir, amma ÇAR SİYASƏTİ qəti dəyişmir. Qarabağda qanın qurumasına, sülhün olmasına Avropa da Rusiya qədər qarşıdır. Antitürk siyasəti, Azərbaycanın strateji coğrafiyada yerləşməsi, neft və qaz ehtiyatlarına sahib olması Avropadakı riyakar və məkrli siyasi qüvvələrin gözünə ox kimi girir. Bunlar üçün qarabağda qanın quruması o deməkdir ki, bunların maraqları da getdi məzarlığa. Bax, o maraqları məzarlığa basdırmamaq üçün min hoqqadan çıxırlar ki, Azərbaycan və Ermənistan arasında daima qan axsın. Elə “qulağımızın dibindəki” İran da erməni sevgisinə və Azərbaycan düşmənçiliyinə görə qətiyyən avropalılardan geri qalmır. Əksinə, fars rejimi bu coğrafiyada yerləşdiyi üçün Azərbaycanın ayaqda olmasına ən çox qəzəblənən “müsəlmanlardandır”. Qəti fərqi yoxdur: Ya Xomeyni rejimi, ya Rza Şahın nəvələri-hamısı Azərbaycan nifrəti ilə alışıb yanırlar. Yerləşdiyimiz coğrafiya, gözlərinə ox kimi batdığımız qonum-qonşu əhatəmiz təəssüf ki, belədir. Məncə, Qarabağda sülh müqaviləsi üçün AÇAR Moskvada, Kremldəki otaqlardadır. Azərbaycan və Ermənistan liderləri Moskvaya yığışırlar. Qarabağda sülh üçün əsl müqavilənin açarı orada gizlədilib. Vladimir Putin AÇARI verəcəkmi?- gözləyək görək!

Təhlil

# Uşaqların telefonunu hansı proqramlarla izləyə bilərik?



***Uşaqların telefon istifadəsinə nəzarət etmək üçün valideyn nəzarəti proqramlarına ehtiyacımız var. Bəs, bunlar hansı proqramlardır? SİA mövzu ilə bağlı araşdırma aparıb.***

**Uşağınızın telefonunu necə izləmək olar?**

Uşağınızın smartfonunu izləmək iki yolla həyata keçirilə bilər. Birinci üsul ənənəvi üsuldur, burada uşağın cihazından onun necə istifadə etdiyini anlaya bilərsiniz. İkinci və ağıllı yol valideyn nəzarəti proqramından istifadə etməkdir və aşağıdakı siyahı birini seçməyə kömək edəcək:

**1. Norton Ailəsi Valideyn Nəzarəti**

Norton, uşaqların telefonlarına nəzarət etmək üçün istifadə edilə bilən Android üçün ən yaxşı valideyn nəzarəti proqramlarından birini təklif edir. Tətbiq sizdən (həm sizin, həm də uşağınızın smartfonunda) qeydiyyatdan keçmənizi və işə başlamazdan əvvəl bir neçə şərtlə razılaşmanızı tələb edir.

Quraşdırma zamanı müxtəlif yaş qrupları üçün fərqli olan nəzarət səviyyəsini seçməlisiniz. Siz övladlarınızın hər biri üçün hesablar yarada bilərsiniz və hər iki hesab ayrı qalır, beləliklə izləmək asan olur. Siz telefon izləmə üçün müəyyən edilmiş müxtəlif qaydaları aktivləşdirə və ya söndürə bilərsiniz. Bundan əlavə, proqram lazım olduqda uşağınızın cihazlarını kilidləməyə imkan verir.

**2. Valideyn Nəzarəti və Uşaq GPS: Kaspersky SafeKids**

Siz hesab yaratmalı və müxtəlif şərtləri qəbul etməlisiniz. Bundan sonra, proqramı həm öz, həm də uşağınızın smartfonuna quraşdırmalısınız ki, uşağın fəaliyyətini diqqətlə izləmək daha asan olsun.

Tətbiqin dörd bölməsi var: Xülasə, Xəbərdarlıqlar, Hadisələr, Parametrlər. Uşağın telefonunu izləmək üçün pulsuz valideyn nəzarəti proqramı uşağınızın yerini, internet istifadəsini, tətbiqdən istifadəni və daha çoxunu izləməyə imkan verir. Seçiminizə uyğun olaraq bu fərdiləşdirmələri aktivləşdirə bilərsiniz.

Bundan əlavə, həmçinin tətbiq istifadənizi təhlükəsiz saxlamaq üçün pin və ya barmaq izi identifikasiyası qura bilərsiniz. Hətta övladınızın cihazında proqramı kilidləyə bilərsiniz ki, onlar proqramı silməsinlər. Həmçinin, proqram yeni və təkmilləşdirilmiş xüsusiyyətlərə daxil olmaq üçün müxtəlif planlara yüksəldilə bilər.

**3. Qustodio**

Qustodio valideynlərə övladlarının smartfon istifadəsini izləyə bilməyə və hətta məhdudlaşdırmağa imkan verən valideyn monitorinq proqramıdır. Siz övladınızın fəaliyyətini diqqətlə izləyərkən internetdən, oyunlardan və proqramlardan istifadəni məhdudlaşdırmaq kimi valideyn nəzarətindən istifadə edə bilərsiniz.

Həmçinin zəngləri və mesajları bloklaya və uşağın sosial həyat tərzini və yerini izləyə bilərsiniz. Bundan əlavə, fövqəladə hallarda panik düyməsini qura bilərsiniz. Başlamaq üçün şərtləri qəbul etməli və daxil olmalısınız. Bunu başa vurduqdan sonra daha yaxşı başa düşülməsi üçün sizə proqram haqqında ümumi məlumat veriləcək. Tətbiq həmçinin sizə nümunə uşaq təqdim edir ki, siz onun necə işləyəcəyi barədə fikir əldə edə biləsiniz, ona görə də bu, ən yaxşı pulsuz valideyn nəzarəti proqramı ola bilər.

Tətbiq uşaqların bütün fəaliyyətlərini, ekran vaxtını və hər bir tətbiqdən istifadəni sadalayır, tətbiqlərə girişə icazə və ya rədd etdiyinizə qərar



verir. Əlavə olaraq, tətbiq daha çox funksiya üçün premium versiyasına (ödənişli) yüksəldilə bilər.

**4. Google Family Link**

Google uşaqların telefonlarına nəzarət etmək üçün valideyn nəzarəti proqramına da malikdir. Google Family Link proqramı sizə seçiminizə uyğun olaraq ekran limitləri təyin etməyə, gündüz və ya gecə istifadə məhdudiyyətləri təyin etməyə və tətbiqlərə icazə verməyə və ya blok etməyə imkan verir.

Tətbiq sizdən şərtlərlə razılaşmanızı, hesab yaratmağınızı və uşaqların telefonunu izləmək üçün istifadə edilən müxtəlif proqramlar kimi övladınızın cihazında uşaqlar və yeniyetmələr üçün Google Family Link tətbiqini quraşdırmanızı tələb edir. Bundan əlavə, proqram valideyn nəzarətini fərdiləşdirməyə imkan verir. Tətbiqdən istifadə etmək asan olsa da və hesabların qurulması çətin ola bilər.

**5. MMGuardian**

MMGuardian, cib telefonunun monitorinqi üçün bir sıra funksiyaları olan valideyn nəzarəti proqramıdır. Bura Google Family Link tətbiqi kimi tətbiqlərin istifadəsinin məhdudlaşdırılması, zənglərin və mesajların bloklanması daxildir.

Uşaqlar üçün veb məzmunu filtrləmək imkanı da var. Maraqlı bir xüsusiyyət, uşağın cihazına yeni proqramın endirilib-endirilmədiyini bilmək imkanı verən xəbərdarlıq funksiyasıdır. Bundan əlavə, proqramda cihazda hər hansı uyğun olmayan medianın olub-olmadığını aşkar edən xüsusiyyət var.

**6. Təhlükəsiz Brauzer Valideyn Nəzarəti**

Təhlükəsiz Brauzer Valideyn Nəzarəti proqramı ilk növbədə Android və iOS-da böyüklər və ya porno saytlarına baxmağa imkan verən valideyn nəzarətini təmin edir. Bu, porno və ya böyüklər üçün veb-saytları bloklamağa kömək edir və veb-saytları süzgəcdən keçirməyə imkan verir.

Həmçinin, proqramda uşağınızın cihazında tətbiqləri kilidləməyə imkan verən Uşaq Kilidi funksiyası var ki, siz proqramdan istifadəni məhdudlaşdıra biləsiniz. Bununla belə, o, uşaqlarınızın cihazına Kids Place proqramını yükləməyinizi tələb edir. Tətbiq istifadə rahatlığı üçün bulud əsaslı idarəetməyə imkan verir və proqramdan istifadənin asan yolu olan səsli naviqasiyaya imkan verir.

**7. Ekran vaxtı**

Tətbiq ekran vaxtını məhdudlaşdırmağa imkan verir, həmçinin bir neçə Android və iPhone valideyn nəzarətini təmin edir. Onu istifadə etməyə başlamaq üçün daxil olmaq, proqramın uşaq versiyasını uşağınızın cihazına yükləmək və təqdim edilmiş pin kodunu daxil etmək lazımdır.

Tətbiq uşağınızın smartfondan istifadəsini izləməyə və buna uyğun olaraq məhdudlaşdırmağa imkan verir. Amma onu digər valideyn nəzarəti proqramlarından fərqləndirən odur ki, uşağınıza tapşırıqlar verməyə imkan verir. Tapşırıqları yaxşı yerinə yetirsələr, tətbiqlərdən istifadə etmək üçün əlavə ekran vaxtı əldə edə bilərlər. Tapşırıqlara ev tapşırığı və ya sizin tapşırdığınız bir iş daxil ola bilər.

**8. ESET Valideyn Nəzarəti**

Bu, bu siyahıda Android üçün ən yaxşı valideyn nəzarəti proqramlarından biridir. Tətbiq uşağınızın internetdən necə istifadə etdiyini görmək və şübhəli bir şey tapdığınız zaman istifadə limitlərini təyin etmək məqsədi daşıyır.

Valideyn nəzarəti üçün müxtəlif proqramlar kimi, ESET sizdən profilinizi yaratmağınızı və proqramı uşağınızın cihazına endirməyinizi tələb edir. Bütün quraşdırma prosesini yerinə yetirdikdən sonra siz uşağınızın fəaliyyətini izləyə və müvafiq olaraq istifadəni məhdudlaşdıra bilərsiniz. Əlavə olaraq, tətbiqin veb monitorinqi və bir ay ərzində uşağın fəaliyyətini ümumiləşdirən hesabatlar kimi xüsusiyyətləri aktivləşdirmək üçün premium versiyası var.

**9. Ailə vaxtı**

FamilyTime, uşağınızın smartfon istifadəsinə nəzarət etmək üçün başqa bir proqramdır və o, sizə bunu etmək üçün bir neçə funksiya təqdim edir. Bu, iPhone və Android üçün ən yaxşı pulsuz valideyn nəzarəti proqramı kimi qəbul edilməsinin səbəbidir.

Normal qeydiyyat prosesini izlədikdən sonra siz sadəcə olaraq uşağınızı proqrama əlavə etməlisiniz və onların fəaliyyətini izləməyə başlamalısınız. Tətbiq həmçinin sizdən uşaq versiyasını uşağınızın cihazına yükləməyinizi tələb edir. Siz cihazdan istifadənin xülasəsinə baxa, parametrləri dəyişdirmək üçün parametrlərə keçə və hətta uşağınızın cihazı üçün pin təyin edə bilərsiniz.

Saat və ekran vaxtı məhdudiyyətlərini təyin etməklə yanaşı, hətta ekspert yardımı üçün dəstək komandası ilə danışa bilərsiniz. Bundan əlavə, siz uşağınızın yerini izləyə bilərsiniz. Bu da onu ən yaxşı telefon izləmə proqramlarından birinə çevirir.

**SMM Manager (Sosial Media Marketing Mütəxəssisi) Murad Yazimov:** "Günümüzdə uşaqların mobil telefonlarla tanışlığı və istifadəsi çox kiçik yaşdan başlayır və həyatlarının ayrılmaz hissəsinə çevrilir. Belə ki, balacalar kiçik yaşdan telefon sahibi olurlar. Valideynlərin lazım olduqda uşaqları ilə istər zəng, istərsə də mesajla rahat əlaqə qurmaları onlara rahatlıq versə də, uşaqların mobil cihazlardan çox istifadə etməsi, hansı websaytlara daxil olub olmaması, sosial mediadan necə istifadə etməsi və bu kimi başqa səbəblər onları ciddi dərəcədə narahat edir. Belə vəziyyətlər üçün hər kəsin bildiyi kimi, yüzlərlə "Valideyn nəzarət"i tətbiqləri var. Bu tətbiqlər valideynlərin uşaqları telefonlarında hansı websaytlara girə bilərlər və ya filterlərlə qadağa qoya bilərlər, cihazın ekranı günlük neçə saat aktiv qala bilər ona limit qoyub nəzarət edə bilərlər. Həmçinin, xəritə üzərindən övladlarını izləyə bilərlər.

Yüzlərlə valideyn nəzarəti tətbiqi mövcuddur. Amma bunların hamısının işləmə keyfiyyəti o qədər də yaxşı deyil. Hətta deyərdim ki, çox aşağıdır.

**Tövsiyə etdiyim proqramlar:**

1. Qustodio ( bütün tanınan sitemlərə uyğundur Android,iOS, PC, macOS, Linux və s.)

2. Mobicip ( bütün tanınan sitemlərə uyğundur Android, iOS, PC, macOS, Chromebook və s.)

3. Bark - 25-dən çox sosial media platformasını idarə edir. (Android və iOS)

4. Norton Family ( Android , iOS və PC)

5. mSpy - ekran kaydına qədər inkişaf etmiş funksiyalar (Android və iOS)

***Ayşən Vəli***

ARAŞDIRMA






# Heydər Əliyev-100



# Heydər Əliyev strategiyası sosial-iqtisadi uğurlarımızın əsasını təşkil edir

***Azərbaycan xalqı qədim tarixə, dərin milli-mədəni və mənəvi irsə, eləcə də böyük dövlətçilik ənənələrinə malik bir xalqdır. Tarix sübut edir ki, yalnız bu keyfiyyətləri özündə cəmləşdirən xalqlar geniş əhali kütləsini öz ardınca aparmağı bacaran şəxslər yetişdirə bilər.***

*“Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!”*

**Ümummilli lider Heydər ƏLİYEV**

Bu gün Azərbaycan beynəlxalq aləmə sürətlə inteqrasiya edən, dinamik iqtisadi inkişafını və etibarlı siyasi stabilliyini təmin etmiş müstəqil bir dövlətdir. Artıq dövlətimiz mötəbər kürsülərdən öz sözünü deməyə, öz haqlı mövqeyini bildirməyə və qorumağa qadir, zəngin iqtisadi potensiala malik bir dövlətdir. Müstəqilliyin ilk illərində məlum səbəblərdən bərbad hala düşmüş Azərbaycan iqtisadiyyatında tərəqqiyə nail olunmasına, çox kövrək və zəif dövlət siyasətinin güclü və aparıcı mövqeyə yüksəlməsinə, qədim tarixi və çoxəsrlik zəngin mədəniyyəti olan uca millətimizin bütün dünyada tanıdılması istiqamətində yorulmaz fəaliyyətinin nəticələrinə, eləcə də heç kəsə nəsib olmayan uzunmüddətli məharətlə başçılıq etdiyinə görə, hələ uzun illər öncədən xalqımızın qəlbində əvəzsiz dövlət xadimi qiymətini almış möhtərəm Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi müxtəlif dövrlərdə həyata keçirdiyi strategiya bütün sahələrdə əldə olunan uğurların əsasını təşkil edir.

Dünya təcrübəsindən məlumdur ki, dövlət başçısı ölkənin inkişaf tələblərini və xalqın mənafeyini dəqiqliklə qiymətləndirməyə qadir olan, ölkənin mədəni, iqtisadi və təbii resurslarını, potensialını əhalinin rifahı və dövlətçiliyin inkişafına yönəltməyi bacaran şəxs olmalıdır. Bu mənada Azərbaycan xalqı xoşbəxtdir ki, tarix xalqımıza Heydər Əliyev kimi dünya miqyaslı şəxsiyyətin simasında əsl ümummilli liderə xas olan parametrlərə tam cavab verən, eləcə də xalqımızın və dövlətimizin qarşısında duran çətinlikləri aradan qaldırmaqla Azərbaycan dövlətini qısa zamanda hüquqi, dünyəvi, demokratik inkişaf yoluna çıxarmağa qadir olan dövlət başçısı, ümummilli lider bəxş etmişdir.

Heydər Əliyevin hakimiyyət ustadı olduğunu və o cümlədən dünya siyasətinin aparıcı simalarından biri kimi nadir insan olduğunu ən qərəzli opponentləri belə etiraf edirdilər. Onun idarəçilik qabiliyyətindən, dövlətçilik dərslərindən, eləcə də Azərbaycan dövləti və xalqı üçün çəkdiyi zəhmətlərdən söhbət açmaq bütöv bir tarixi mərhələyə işıq tutmaq, yüksək praktiki əhəmiyyətə malik dəqiq və konkret elmi-nəzəri fikirlərə əsaslanan bir təlimdən bəhs etmək kimi məsuliyyətli bir işdir. Zəka və müdrikliyi, öz millətinə və vətəninə olan sevgisi ilə bəşər övladını heyrətə gətirən ümummilli lider Heydər Əliyevin zəngin dühası qiymətli fikir və hikmət xəzinəsi idi.

## TƏNƏZZÜLDƏN TƏRƏQQİYƏ GEDƏN YOL

“Müasir Azərbaycanın bütün uğurları Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə xalqın tələbi ilə Azərbaycana rəhbərliyə gəldikdən sonra Heydər Əliyev ölkəni inkişaf etdirməyə başladı. Müharibə dayandırıldı, vətəndaş qarşıdurmasına son qoyuldu, qeyri-qanuni silahlı dəstələr tərksilah olundu, qaydaqanun yaradıldı”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Ümummilli lider Heydər Əliyevin xalqın iradəsi və çağırışı ilə 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərcmərclikdən xilas edən dahi rəhbər ölkənin iqtisadi yüksəlişi üçün də təcili tədbirlər görməyə başladı. İttifaq səviyyəsində mövcud olan iqtisadi əlaqələr dağıldıqdan sonra milli iqtisadiyyatın dirçəldilməsi üçün ölkənin malik olduğu təbii resurslardan istifadə edilməsi və milli məhsulların xarici bazarlara çıxışının təmin edilməsi mühüm əhəmiyyət kəsb edirdi. Məhz, həyata keçirilən ardıcıl tədbirlər nəticəsində, dinamik iqtisadi artım təmin edilmiş, milli iqtisadiyyatın ayrı-ayrı sahələrinə cəlb edilmiş investisiyaların həcmi milyardlarla manat çoxalmış və ən əsası investisiya qoyuluşlarında aparıcı mövqeyə yerli maliyyə mənbələri çıxmışlar. Başqa sözlə desək, bu müddət ərzində investisiya qoyuluşlarının əsas hissəsi yerli vəsaitlərin payına düşür.

Ümumiyyətlə ulu öndər Heydər Əliyevin xalqımız, müstəqilliyimiz üçün tarixi əhəmiyyət kəsb edən xidmətləri minlərlədir. Bütün bunlar isə, ulu öndərin xidmətlərinin heç də onun işlədiyi vəzifələrdən deyil, özünün malik olduğu yüksək insani keyfiyyətlərə, polad iradəyə, zəngin dünya görüşünə, hərtərəfli dərin savada malik, millətini və dövlətini hər şeydən üstün tutmağı bacaran bir insanın vətəninə və millətinə olan sevgisindən irəli gələn bir tələbat idi.

Yuxarıda qeyd edilənləri də nəzərə alaraq dövlət müstəqilliyinin bərpasından sonrakı iqtisadi inkişaf dövrünü, şərti olaraq 3 mərhələyə ayırmaq olar: müstəqilliyin ilk illərindən 1994-cü ilə qədər Azərbaycan iqtisadiyyatında tənəzzül hökm sürmüş, 1995-ci ildən başlayaraq 2003-cü ilə qədər ölkə iqtisadiyyatında stabillik və dinamik inkişaf müşahidə olunmuş, növbəti illərdən isə ölkə iqtisadiyyatında davamlı inkişaf dövrü başlamışdır. Bu mərhələnin ikisi ümummilli lider Heydər Əliyevin hakimiyyəti illərinə təsadüf edir. Hər bir dövrün özünün səciyyəvi siyasi-iqtisadi xüsusiyyətləri və nəticələri vardır. Konkret mərhələləri, qısaca olaraq, aşağıdakı kimi xarakterizə etmək olar:

Qeyri-sabitlik və iqtisadi tənəzzül ilə xarakterizə olunan 1991-1994-cü illər - İQTİSADİ TƏNƏZZÜL dövrü:

Müstəqillik əldə etdikdən sonra dövlət idarəçiliyi sahəsində təcrübəsizlik; Ölkədaxili siyasi böhran;

Ermənistan tərəfindən zorla müharibəyə təhrik edilmə və ölkə ərazisinin 20% nin işğalı;

Əksər istehsal sahələrinin fəaliyyətinin dayanması;

Keçmiş ittifaq respublikaları ilə ənənəvi iqtisadi əlaqələrin qırılması və satış bazarlarının itirilməsi;

Tarazlaşdırılmamış iqtisadi siyasət;

Yeni yaranmaqda olan bazar iqtisadiyyatı elementlərinin və sahibkarlığın kortəbii inkişafı.Qeyri-sabitlik və iqtisadi tənəzzül nəticəsində ölkənin əsas makroiqtisadi göstəricilərində azalma qeydə alınmışdır. Belə ki, 1991-94-cü illərdə ÜDM hər il orta hesabla 13-20%, adambaşına düşən ÜDM 72%, əhalinin real pul gəlirləri 3.6 dəfə, adambaşına düşən pul gəlirləri, orta hesabla, 1.4 dəfə, əmək haqqı üzrə əldə edilən gəlirlərin səviyyəsi 8.2 dəfə azalmış, ölkədə hiperinflyasiya (1763%) qeydə alınmışdır.

Sabitlik və dinamik iqtisadi artım ilə xarakterizə olunan 1995-2003-cü illər - DİNAMİK İQTİSADİ İNKİŞAF dövrü:.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi;

Tənəzzülün dayandırılması, makroiqtisadi sabitlik və dinamik iqtisadi tərəqqi;

“Əsrin müqaviləsi” və Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyası;

1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsi və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı sazişin imzalanması;

1998-ci ildə Bakı şəhərində “Böyük İpək Yolunun Bərpası”na dair beynəlxalq konfransın keçirilməsi və tarixi yolun bərpasına başlanılması;

Ümummilli lider Heydər Əliyevin 1999-cu ildə imzaladığı Fərmanla Dövlət Neft Fondunun yaradılması;

Beynəlxalq təşkilatlar, xüsusilə Maliyyə İnstitutları ilə sıx əməkdaşlıq (stabilləşdirmə proqramları);

Dövlət mülkiyyətinin özəlləşdirilməsi, iqtisadiyyatda mülkiyyətin çoxnövlülüyünün təmin olunması və sahibkarlığın inkişafı;

MDB-də ilk dəfə olaraq, torpaq islahatlarının həyata keçirilməsi;

Sahəvi sosial-iqtisadi inkişaf proqramlarının hazırlanması və həyata keçirilməsi:

Kiçik və Orta Sahibkarlığın inkişafına dair Dövlət Proqramları;

Dövlət statistika sistemində islahatların aparılmasına dair Dövlət Proqramı

Aqrar bölmənin inkişafına dair Dövlət Proqramları;

Dövlət əmlakının özəlləşdirilməsinə dair Dövlət Proqramları və s.

Sosial-iqtisadi siyasətin əsas parametrləri işlənib hazırlanmışdır:

Sərt büdcə, pul-kredit siyasəti;

Vergi və gömrük sistemində islahatlar; Qiymətlərin, xarici iqtisadi fəaliyyətin, valyuta bazarının liberallaşdırılması;

Müəssisələrin təsərrüfat fəaliyyətində dövlətin rolunun məhdudlaşdırılması;

Bazar institutlarının formalaşdırılması (valyuta birjası, kredit, qiymətli kağızlar, sığorta və lizinq bazarlarının yaradılması);

Sahibkarlıq fəaliyyəti və xarici investisiyaların cəlb edilməsi üçün əlverişli mühitin yaradılması.

Həyata keçirilən ardıcıl islahatlar nəticəsində, 1994-2003-cü illəri əhatə edən dövrdə ölkə iqtisadiyyatı dinamik inkişaf etmişdir. Belə ki, baxılan dövrdə:

ÜDM-in orta illik artımı 9 % olmuş;

Adambaşına düşən ÜDM 3 dəfə artmış;

Özəl sektorun ÜDM-də payı 2 dəfədən çox artaraq 73%-ə çatmış;

Orta aylıq real əmək haqqı 5,6 dəfə artmış;

Xarici investisiya qoyuluşları 10, daxili investisiya qoyuluşları isə 5 dəfəyə qədər artmış;

İstehlak qiymətləri indeksi 1995-ci ildəki 512%-dən, 2003-cü ildə 2,2%-ə qədər aşağı düşmüşdür;

Dövlət büdcəsinin gəlirləri 3 dəfə artırılmış, büdcə kəsiri minimum səviyyəyə endirilmiş;

Cənubi Qafqaz iqtisadiyyatında Azərbaycanın payı 50 faizdən çox olmuşdur.Bütün bunlar, bir daha sübut edir ki, ulu öndərin xalqın təkidi ilə yenidən hakimiyyətə gəlişi Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərc-mərclikdən xilas edərək, dinamik tərəqqi yoluna gətirmişdir.

## DÜNYANIN ENERJİ XƏRİTƏSİNİ DƏYİŞƏN LİDER

1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir

və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii

sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı

naminə daha da səmərəli istifadə etməkdən ibarətdir.

**Ümummilli lider Heydər ƏLİYEV**

Ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərliyinin ilk illəri olduqca mürəkkəb şəraitə təsadüf edirdi. Vətəndaş müharibəsi təhlükəsi, iqtisadi çətinliklər, günü-gündən ağırlaşan sosial-iqtisadi vəziyyət, işğalçı Ermənistanın müharibə təhrikləri və s. mürəkkəb bir şərait formalaşdırmışdır. Bütün bunların fonunda, ümummilli lider çox böyük məharətlə neft strategiyasını işləyib hazırladı. Ulu öndər H.Əliyev böyük uzaqgörənliklə dünyanın enerji tələbatının günbəgün artdığını görür, neft diplomatiyası dövrünün başlandığını və bu sahədə ölkəsinin qazanacağı iqtisadi və siyasi dividendi dəqiqliklə qiymətləndirə bilirdi.

Məhz belə bir şəraitdə, dünyanın söz sahibi olan ölkələrin nəhəng neft şirkətləri ilə intensiv danışıqlar başlandı və nəhayət 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bu Müqavilənin çox böyük iqtisadi dəyəri ilə yanaşı, siyasi əhəmiyyəti ondan ibarət idi ki, Azərbay-can dünya iqtisadi siyasətinin maraq mərkəzinə çevrildi. Vaxtilə "Neft daşları"nın salınması Azərbaycanı Xəzərin söz sahibi etmişdirsə, ümummilli lider Heydər Əliyevin qətiyyətinin təntənəsi olan "Əsrin müqaviləsi" də müstəqil Azərbaycanı dünyanın qüdrətli dövlətlərinin mühüm iqtisadi tərəfdaşına çevirdi. Artıq, Azərbaycan dünya dövlətlərinin marağında olan, Avroatlantik məkanın enerji təminatı və təhlükəsizliyində aparıcı mövqeyə malik bir dövlət idi.

Ümummilli lider Heydər Əliyevin neft strategiyasının yeni bir mərhələsi isə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri layihəsinin reallaşdırılması oldu. Bəzi dövlətlərin qısqanclıqla yanaşdıqları və hətta reallaşacağına şübhə etdikləri, xəyal adlandırdıqları BTC 2006-cı ildə işə salındı. BTC-nin açılışında bp şirkətinin prezidenti Con Braun onun əhəmiyyətindən danışaraq qeyd etdi ki, "BTC-nin fəaliyyətə başlaması dünyanın enerji xəritəsini dəyişdi". Amma dünyanın ENERJİ XƏRİTƏSİNİ DƏYİŞƏN BTC YOX, ONUN YARADICISI, AZƏRBAYCAN XALQININ DAHİ OĞLU HEYDƏR ƏLİYEV OLDU.

Ümummilli lider müstəqil Azərbaycanın iqtisadiyyatının təkcə neft sənayesi üzərində qurulmasının da gələcəkdə arzuolunan nəticələr verməyəcəyini bilirdi. Məhz ona görə də neft gəlirləri hesabına iqtisadiyyatın digər sahələrini inkişaf etdirməyin, infrastruktur layihələrinin reallaşdırılmasının vacib olduğunu qeyd edir və buna səy göstərirdi.

## AZƏRBAYCAN İQTİSADİYYATI BAZAR MÜNASİBƏTLƏRİNƏ UYĞUN İNKİŞAF EDİR: SAHİBKARLIĞIN İNKİŞAFI VƏ DÖVLƏT MÜLKİYYƏTİNİN ÖZƏLLƏŞDİRİLMƏSİ

"Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar"

Ümummilli lider Heydər ƏLİYEV

"Sahibkarlıq fəaliyyəti bizim üçün ən mühüm amillərdən biridir" prinsipini bazar iqtisadiyyatı və azad sahibkarlıq şəraitində iqtisadi tərəqqinin əsas amalı olaraq görən ulu öndər özəl sektorun formalaşmasına böyük diqqət və qayğı göstərirdi. Bu səbəblə 1995-ci ildən etibarən ölkədə aparılan ardıcıl və sistemli iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri də dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması idi. Bu, təsadüfi deyildi. Çünki Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının özəl sektorla bağlı olduğunu bilirdi: "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur". Ulu öndərin həmin vaxt müəyyənləşdirdiyi və rəhbərliyi ilə uğurla həyata keçirilən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönələn tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə edilirdi.

1995-96-cı illərdə yaranmış əlverişli makro-iqtisadi sabitlik şəraitindən istifadə edərək 1997—1998-ci illərdə ölkədə iqtisadi islahatların yeni mürəkkəb mərhələsinə – struktur islahatlar mərhələsinə başlandı. Xüsusi dövlət proqramına uyğun olaraq ölkədə genişmiqyaslı özəlləşdir-məyə başlanmış, iqtisadiyyatın əsas sahələrindən olan aqrar sferada torpağın xüsusi mülkiyyətə verilməsi istiqamətində radikal islahatlar aparılmış, yeni iqtisadi tələblərə cavab verən maliyyə sektorunun, onun vacib hissəsi olan bank sisteminin formalaşdırılması, dövlət banklarının yenidən qurulması istiqamətində radikal addımlar atılmışdır. İqtisadi islahatların mühüm istiqamətləri kimi ölkədə özəlləşdirmə proqramının həyata keçirilməsi azad sahibkarlığın və şəxsi təşəbbüskarlığın inkişafına şərait yaratmışdır.

Qeyd etmək lazımdır ki, 1998-ci ilə qədər 28 mindən çox kiçik müəssisə özəlləşmiş və dəmək olar ki, kiçik özəlləşdirmə başa çatmışdı. 1997-ci ildən başlayaraq özəlləşdirmədə həlledici mərhələ olan böyük özəlləşdirməyə – orta və iri dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi prosesinə başlanmışdır. Təkcə 1998-ci ildə 800-dən çox orta və iri dövlət müəssisələri səhmdar cəmiyyətlərə çevrilmişdir. Beləliklə, ölkədə makromaliyyə sabitliyinin təmin edilməsinin, bazar münasibətlərinin formalaşdırılmasının əsas şərti olan iqtisadiyyatın idarə olunmasının bütün istiqamətlərində liberallaşdırılmasının, bazar iqtisadiyyatının bütün atributlarının yetişməsinə iqtisadi və hüquqi islahatlar aparılması yolu ilə zəruri mühitin yaradılmasının və əsaslı struktur islahatların aparılmasının məntiqi nəticəsi olaraq 1989-cu ildən sonra davam edən iqtisadi tənəzzül dayandırıldı və ümumi daxili məhsulun həcminin aşağı düşməsinin qarşısı alındı. Reallıqlar göstərir ki, iqtisadi tənəzzülün qarşısı nəinki alınmış, hətta 1996-cı ildə onun artımına nail olunmuşdu. 1996-cı ildən 1,3 faiz olan iqtisadi artım 1997-ci ildə 5,8 faizə çatmışdı.

1998-ci ilin yekunları respublikanın sosial-iqtisadi inkişafında müsbət meyillərin ildən-ilə möhkəmləndiyini, bu prosesin dönməz xarakter almasını göstərir. Az bir zamanda Azərbaycan iqtisadi inkişafın artım sürətinə görə postsovet respublikaları arasında qabaqcıl mövqe tutdu. Azərbaycanda iqtisadi artım sürəti 1995-ci ildən başlayaraq MDB üzrə orta göstəricidən xeyli yüksək olmuşdur.

Ölkənin inkişaf səviyyəsində ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş və verməkdə davam edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi (10 may 2004-cü il) kimi: "Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxdı. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların üzvüdür, onlarda fəal iştirak edir. Bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var. Artıq demək olar ki, regional məsələlərdə Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə həyata keçirilə bilməz. Beləliklə, Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bizim nüfuzumuz artır, gücümüz artır. Bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir".

## "BÖYÜK İPƏK YOLU" - PARLAQ GƏLƏCƏYƏ GEDƏN YOL

"İpək yolunun bərpası, yeni-yeni ölkələrin və regionların ona cəlb edilməsi, xalqlarımızın yaxınlaşması və qarşılıqlı surətdə zənginləşməsi, yeni müstəqil dövlətlərin istiqlaliyyətinin və suverenliyinin möhkəmlənməsi, bu dövlətlərdə demokratik islahatların, bazar islahatlarının uğurla aparılmasına düzgün təkan verəcək, hamı üçün sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasına kömək göstərəcəkdir. "İpək yolu" keçmişdən başlasa da, gələcəyə gedən yoldur. Əgər biz əməkdaşlıq edə – edə, bir – birimizə hörmət bəsləyərək və bir – birimizi dəstəkləyərək bu yolla birlikdə getsək, o, xalqlarımızı firavanlığa və tərəqqiyə gətirib çıxaracaqdır"

**Ümummilli lider Heydər ƏLİYEV**

Heydər Əliyev bütün sahələrdə xalqımızın milli maraqlarının təmin olunması üçün var-gücü ilə çalışırdı. O, müstəqil dövlətçilik konsepsiyasının uğurlarını təmin edən dövlət xadimi kimi əbədilik qazanmış böyük bir şəxsiyyətdir. Heydər Əliyevin yürütdüyü iqtisadi siyasət həm sosial ədalətə, həm də iqtisadiyyat prinsiplərinə əsaslanırdı, elə buna görə də Azərbaycanda islahatların uğurlu təməlinin qoyulması milli inkişaf modelini təkmilləşdirdi. Heydər Əliyev fenomeni çoxminillik dövlətçilik tariximizdə xüsusi bir hadisədir. O, həm dövlətçilikdə, həm də siyasi idarəetmədə novator idi, müəyyənləşdirdiyi sosial-iqtisadi strategiyası onun Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə respublikanı parlaq zirvələrə qaldırmışdı. Nəhəng sovet dövlətində ali rəhbər vəzifədə təmsil olunması onun yenilməz iradəsini və işıqlı zəkasını təcəssüm etdirirdi. Heydər Əliyev yaradıcı, gərgin əməyi, strateji mükəmməlliyi, iqtisadi islahatlar və demokratik cəmiyyət uğrunda apardığı mübarizələr nəticəsində müstəqilliyimizin əbədi, dönməz xarakter almasına nail oldu. Heydər Əliyev Azərbaycanın uğurlarının təminatçısı olaraq inteqrasiya prosesini sürətləndirdi, dünyanın qabaqcıl ölkələri ilə əlaqələrin qurulmasına rəhbərlik etdi. Onun məqsədyönlü siyasəti ilə Azərbaycanın neft sənayesi, xarici dövlətlərlə iqtisadi münasibətləri, nəqliyyat sahəsi də daxil olmaqla, bir sıra başqa sahələri qüdrətləndi, eləcə də ölkəmizin başqa ölkələrlə iqtisadi əlaqələrinin su, hava və dəmir yolları vasitəsilə möhkəmlənməsi üçün Azərbaycan nəqliyyatının bütün sahələri yenidən bərpa olundu, inkişaf etdirildi. Tarixi Böyük İpək yolunun bərpa olunması sahəsində TRASEKA (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) proqramının yaradılmasına təşəbbüs göstərən 8 ölkədən biri Azərbaycan oldu ki, bu da Mərkəzi Asiyadan Qara dənizə və oradan da Avropaya çıxan nəqliyyat marşrutunun yenidən qurulması demək idi. Bütün bunların Azərbaycan üçün çox mühüm olduğunu bilən böyük liderin təşəbbüsü ilə 1998-ci ilin 7-8 sentyabrında Bakıda 9 ölkənin (Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Özbəkistan, Ukrayna), 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirildi. Həmin konfransda Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalandı. Bakı Bəyannaməsi qəbul edildi, saziş imzalandıqdan sonra bir çox sahələrdə canlanma hiss olunmağa başladı.

İqtisadiyyatın davamlı və dinamik inkişafı, sosial-iqtisadi konsepsiyalar, qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin gerçəkləşməsi və Heydər Əliyevin gərgin əməyi ölkəmizi uğurlu nailiyyətlərə apardı. Heydər Əliyev hər zaman etibarlı nəqliyyat sisteminin inkişafı, milli yol sisteminin dünya kommunikasiya məkanına sürətli inteqrasiyası üçün xüsusi diqqət ayırırdı. Məqsədyönlü və sistemli tədbirlər nəqliyyat-kommunikasiya xətlərinin, eləcə də ölkəmizdə beynəlxalq tranzit dəhlizlərin və yolların yenidən qurulmasına, onlardan respublika-mızın maraqları naminə istifadə olunmasına xidmət edirdi.

Ulu öndər Heydər Əliyevin Azərbaycanın xarici siyasət konsepsiyasının əsas prioritetlərindən birini də Qərbə inteqrasiya, Avropanın nüfuzlu beynəlxalq qurumları ilə birlikdə mühüm layihələrə qoşularaq ölkəmizin iqtisadi potensialını yüksəltməklə xalqımızın sosial vəziyyətinin və maddi rifah halının yaxşılaşdırılmasına nail olmaq olmuşdur. Məhz bu səbəblə ümummilli lider Heydər Əliyev İpək yolunun bərpasına xüsusi diqqət ayırmış və bunları qeyd etmişdir:"İpək yolunun bərpası, yeni-yeni ölkələrin və regionların ona cəlb edilməsi, xalqlarımızın yaxınlaşması və qarşılıqlı surətdə zənginləşməsi, yeni müstəqil dövlətlərin istiqlaliyyətinin və suverenliyinin möhkəmlənməsi, bu dövlətlərdə demokratik islahatların, bazar islahatlarının uğurla aparılmasına düzgün təkan verəcək, hamı üçün sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasına kömək göstərəcəkdir. "İpək yolu" keçmişdən başlasa da, gələcəyə gedən yoldur. Əgər biz əməkdaşlıq edə – edə, bir – birimizə hörmət bəsləyərək və bir – birimizi dəstəkləyərək bu yolla birlikdə getsək, o, xalqlarımızı firavanlığa və tərəqqiyə gətirib çıxaracaqdır" (1998-ci il sentyabrın 7-də Bakıda keçirilmiş Böyük İpək Yolunun bərpası və dirçəldilməsinə həsr olunmuş Beynəlxalq Konfransın materiallarından).

Ulu öndər Heydər Əliyevin İpək yoluna verdiyi böyük önəm belə bir qənaətə gəlməyə əsas verir ki, dünya dövlətləri arasında strateji mahiyyət daşıyan beynəlxalq münasibətlərin yaranması və onun qlobal inkişaf səviyyəsinə qaldırılması hər bir ölkə üçün prioritetdir. Həmin siyasi missiyanın yerinə yetirilməsi üçünsə bir çox vasitələrdən istifadə olunmuşdur ki, bunlardan da ən qədim tarixə malik olanı xarici ticarət əlaqələrini xüsusilə qeyd etmək lazımdır. Çox vaxt siyasi mahiyyəti tam aydın olmayan həmin xarici əlaqələrin dövlətlərarası beynəlxalq münasibətlərdə müstəsna əhəmiyyət kəsb etməsi istər əvvəllər, istərsə də müasir dövrdə real şəkildə təsdiqini tapır. Məhz bu reallıqların həyata keçirilməsində mühüm vasitələrdən biri "İpək yolu" olmuşdur. Hesab edirik ki, Heydər Əliyevin fəaliyyəti kontekstində Azərbaycanın beynəlxalq münasibətləri və qlobal inkişafın siyasi problemləri məsələlərini sadalanan müddəalar istiqamətində tədqiqata cəlb etmək mövzunun aktuallığından irəli gəlir. Yaxın tariximizə qısa ekskurs etsək görərik ki, XX əsrin ikinci yarısından başlayaraq, traskontinental – diplomatiya yolu sayılan "Böyük İpək yolu"nun bərpası və dirçəldilməsi məsələsi artıq dünyanın inkişaf etmiş bir çox dövlətlərinin və nüfuzlu beynəlxalq təşkilatların maraq dairəsində idi.

***Ardı Səh. 10***

Əvvəli-Səh-9

## MDB-DƏ İLK DƏFƏ TORPAQ İSLAHATLARI: TORPAĞIN SAHİBİ KƏNDLİDİR

"Azərbaycanın bütün İttifaq göstəricilərindən və digər ¬respublikaların göstəricilərindən geri qalması ciddi təşviş hissi doğurur. Bunu nə ilə izah etmək olar? Aydındır ki, hər bir sahədəki çatışmazlıqların öz xüsusi səbəbləri vardır. Lakin təhlil göstərir ki, bir çox sahə üçün səciyyəvi olan ümumi səbəblər də az deyildir. Bu, hər şeydən əvvəl, etibar edilən iş sahəsi üçün bəzi rəhbərlərin məsuliyyət hissini itirməsindən ibarətdir. Odur ki, müəssisələrə rəhbərliyin səviyyəsi aşağıdır, lazımi tələbkarlıq və intizam yoxdur".

**Ümummilli lider Heydər ƏLİYEV**

Ümummilli lider müstəqil Azərbaycanın iqtisadiyyatının təkcə neft sənayesi üzərində qurulmasının da gələcəkdə arzulunan nəticələr verməyəcəyini bilirdi. Məhz ona görə də neft gəlirləri hesabına iqtisadiyyatın digər sahələrini inkişaf etdirməyin, infrastruktur layihələrinin reallaşdırılmasına çalışmağın vacib olduğunu qeyd edir və buna səy göstərirdi. Postsovet məkanında ilk dəfə Azərbaycanda Heydər Əliyevin göstərişi ilə torpaq islahatına başlandı. Kolxoz və sovxozların şəxsi və fermer təsərrüfatlarına çevrilməsi kənd təsərrüfatının inkişafında yeni üfüqlər açdı. Ulu öndərin təşəbbüskarlığı, qətiyyətli və prinsipial qərarları Azərbaycan iqtisadiyyatını tədricən dirçəltdi, ona yeni nəfəs verdi. Qısa müddətdə bazar iqtisadiyyatına keçidin qanunvericilik bazası formalaşmağa, iqtisadi həyatımızda sahibkarlıq fəaliyyəti yaranmağa başladı. Bunlar isə hələ andiçmə mərasimində xalqının qarşısında verdiyi vədlərin tərkib hissəsi idi. Ümummilli lider demişdir: "Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və mən sizə bir daha söz verirəm ki, biz məhz bu yolla gedəcəyik".

Prezident Heydər Əliyev müstəqil ölkənin rəhbəri kimi fəaliyyətə başlayandan sonra aqrar sahənin mövcud problemlərini dərindən təhlil edərək, yaranmış şəraitdə sahənin böhrandan çıxarılmasının yeganə yolunu – köklü aqrar islahatların aparılması yolunu müəyyən etdi. Məlumdur ki, aqrarsənaye kompleksi mürəkkəb və çoxsahəlidir. Kənd təsərrüfatı məhsulları istehsalı müəssisələri, emal sənayesi, xidmət qurumları, torpaq fondu və s. üzrə islahatları eyni çərçivədə həyata keçirmək qeyri-mümkündür. Buna görə aqrar-sənaye kompleksinə daxil olan istehsal, emal və xidmət sahələri üzrə ayrı-ayrılıqda, torpaq islahatı üçün isə başqa yanaşma tələb olunurdu. Ulu öndər Heydər Əliyevin uzaqgörən və qətiyyətli səyləri nəticəsində birinci növbədə aqrar, sonra torpaq islahatları aparıldı. 1996-cı ildə qəbul edilmiş "Torpaq islahatı haqqında" qanunla postsovet ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda torpaq üzərində xüsusi mülkiyyətçilik bərqərar oldu. Sahibkarlığın, rentabelli təsərrüfatçılığın inkişafının təmin edilməsi məqsədilə mühüm tədbirlər həyata keçirildi, kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silindi, müddətli vergi güzəştlərinin verilməsinə başlandı, onlar torpaq vergisindən başqa bütün digər vergi ödənişlərindən azad edildilər və bu güzəştlər hazırda da davam etdirilir. İqtisadi islahatların aparılmasının zəruriliyi qərarı sonradan onun hüquqi bazasının yaradılmasına səbəb oldu. 1995-2004-cü illərdə aqrar islahatlarını tənzimləyən bir çox qanun, fərman, sərəncam, qərar və digər normativ hüquqi aktlar qəbul olundu. "Aqrar islahatların əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında" və "Torpaq islahatı haqqında" qanunlar aqrar islahatların hüquqi bazasının əsasını təşkil etdi. Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə həyata keçirilən aqrar islahatlar nəticəsində sahədə xüsusi mülkiyyətçilik prinsiplərinin və sərbəst istehsal münasibətlərinin təsbit olunması ilə yeni sahibkarlıq fəaliyyətinin əsası qoyuldu. Aqrar sahədə müxtəlif təsərrüfatçılıq formalarının təşkili və müasir tələblərə uyğun istehsal formalarının təşkili üçün imkanlar yaradıldı. Aqrar sahədə bazar münasibətinin, dövlətin aqrar siyasətinin müasir bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırılması, sahibkarlığın inkişaf etdirilməsinə hərtərəfli şərait yarandı.

# Heydər Əliyev strategiyası sosial-iqtisadi uğurlarımızın əsasını təşkil edir

## PROQRAM TƏMİNATLI İNKİŞAFA KEÇİD: REGİONAL VƏ SAHƏVİ İNKİŞAF PROQRAMLARI

"Son 16 il ərzində iqtisadi sahədə əldə edilmiş uğurların dünyada bərabəri yoxdur. Əgər varsa, desinlər, götürsünlər statistikaya baxsınlar, hansı ölkə 16 il ərzində öz iqtisadiyyatını 3,4 dəfə artıra bilib".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Tam qətiyyətlə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri də özündən sonra Azərbaycanı uğurlu inkişaf etdirəcək, ölkəmizi dünya dövlətləri sırasında layiqli zirvələrə daşıyacaq və ötən illərdə başlanılmış böyük layihələri, genişmiqyaslı islahatları müvəffəqiyyətlə həyata keçirəcək uğurlu lideri yetişdirməsi olmuşdur. Bu mənada müstəqil Azərbaycan dövlətinin 2003-cü ildən bu günə qət etdiyi inkişaf yolu, əldə etdiyi möhtəşəm nailiyyətlər bu seçimin nə qədər mühüm tarixi əhəmiyyətə malik olduğunu, Azərbaycanın davamlı inkişafı üçün Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu bir daha sübuta yetirmişdir. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi ötən dövr Azərbaycan tarixinə sabitlik və hərtərəfli inkişaf dövrü kimi daxil olmuşdur. Tarixi təcrübə göstərir ki, milli həmrəyliyə malik olan, iqtidar - xalq birliyi yüksək səviyyədə təmin edilən ölkələr qarşıya qoyulan hədəflərə müvəffəqiyyətlə çatırlar. Ölkəmizin də inkişafını fərqləndirən əsas cəhətlərdən biri ondan ibarətdir ki, Azərbaycanda dövlət siyasətinin müəyyənləşməsində cəmiyyətdən gələn sifarişlər əsas götürülür və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin ana xəttini məhz xəlqilik təşkil edir. Möhtərəm Prezident İlham Əliyev 2003-cü ildə öz vəzifəsinin icrasına başlayarkən "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" demişdi. Və ötən dövrdə Prezident İlham Əliyev öz əməli fəaliyyəti ilə xalqımızın böyük dəstək və ehtiramını qazanmış, hər bir vətəndaşımızın Prezidenti olduğunu sübuta yetirmişdir. Gənc dövlətin əsaslarının möhkəmliyi, həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi, uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Azərbaycanın əldə etdiyi genişmiqyaslı nailiyyətlər dövlət başçısının qətiyyətli, yaradıcı və milli maraqlara söykənən fəaliyyətinin nəticəsidir. Ölkəmizin hərtərəfli inkişafı ciddi konseptual əsaslara malikdir və hər bir sahə üzrə bitkin, siyasi, iqtisadi və sosial cəhətdən əsaslandırılmış fəaliyyət proqramları həyata keçirilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ləyaqətli siyasət, kifayət qədər cəsarət və ölkənin gələcəyi üçün aydın strategiya mövcud olduğu halda müstəqil siyasət yeritmək mümkündür. Bu müstəqil siyasət, ilk növbədə, Azərbaycan xalqının iradəsinə əsaslanır və xalqımızın maraqlarını təmin edir. Ölkəmizin dinamik inkişafını şərtləndirən digər mühüm məsələlərdən biri də həyata keçirilən islahatların ardıcıllığının təmin olunmasıdır. Dövlət başçısı bu islahatların vacibliyini vurğulayaraq inkişaf və tərəqqinin islahatlarsız mümkün olmadığını qeyd edib: "İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk".

Böyük müvəffəqiyyətlə həyata keçirilən islahatlar çərçivəsində qeyri-neft sektorunun üstün inkişafına nail olunması, azad sahibkarlığın inkişafına əlverişli şərait yaradılması, bazar iqtisadiyyatının gücləndirilməsi, xarici investisiyaların regionların inkişafına cəlb edilməsi, regional inkişaf proqramlarının uğurlu icrası və iqtisadi aktivlik coğrafiyasının regionlara doğru genişlənməsi Azərbaycanın iqtisadi həyatında çox ciddi nailiyyətlərin qazanılmasını şərtləndirmişdir. Həmçinin in yeni istehsal sahələrinin yaradılması, qlobal iqtisadi layihələrin həyata keçirilməsi, makroiqtisadi sabitliyin qorunub saxlanılması, milli istehsalın və ixracın genişləndirilməsi, modern sənaye quruculuğu kimi başlıca strateji vəzifələrin yerinə yetirilməsi nəticəsində Azərbaycan dünyanın iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Ölkəmizdə liberal, rəqabətədavamlı, ixrac tutumu böyük olan diversifikasiya edilmiş iqtisadiyyat quruculuğu ilə bağlı yeni hədəflər müəyyənləşdirilmiş və hazırda bu strateji vəzifələr uğurla icra olunur. Bu illər ərzində milli iqtisadiyyatımız 3,4 dəfə genişlənmişdir ki, bu da bütün dünya üzrə ən yaxşı göstəricilərdən biridir. Bu gün Azərbaycan Cənubi Qafqazda ən güclü iqtisadiyyata malik ölkədir. Qlobal iqtisadi sferada müşahidə olunan mənfi tendensiyalar və risklər fonunda Azərbaycan özünün iqtisadi məkanını mənfi təsirlərdən qoruya bilir və milli iqtisadiyyatımız rəqabətqabiliyyətliliyinə görə MDB-də lider mövqeni tutur. Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin birinci iclasında söylədiyi dərinməzmunlu nitqində respublikamızın iqtisadi sahədə qazandığı uğurlardan bəhs edərək deyib: "Son 16 il ərzində iqtisadi sahədə əldə edilmiş uğurların dünyada bərabəri yoxdur. Əgər varsa, desinlər, götürsünlər statistikaya baxsınlar, hansı ölkə 16 il ərzində öz iqtisadiyyatını 3,4 dəfə artıra bilib".

Möhtərəm Prezidentimiz İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-2021-ci illəri statistik olaraq aşağıdakı kimi təsvir edə bilərik. Belə ki, son 18 il ərzində (2021-ci ildə 2003-cü ilə nisbətən):

- Ümumi Daxili Məhsul istehsalı 3,4 dəfə, o cümlədən qeyri neft-qaz sektoru üzrə3,1 dəfə artmışdır;
- Sənaye məhsulu istehsalı 2,7 dəfə, o cümlədən qeyri neft-qaz sənayesi üzrə 3,6 dəfə artmışdır;
- Əsas kapitala yönəldilmiş vəsaitlərin həcmi 2,7 dəfə, o cümlədən tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitlər 4,1 dəfə artmışdır;
- Yük daşınması 1,8 dəfə, sərnişin daşınması isə 1,3 dəfə artmışdır;
- İnformasiya və rabitə xidmətlərinin həcmi, real ifadədə, 15,4 dəfə artmışdır;
- Pərakəndə ticarət dövriyyəsi, faktiki qiymətlərlə, 14,6 dəfə artmışdır;
- Əhaliyə göstərilmiş ödənişli xidmətlərin həcmi, real ifadədə, 5,1 dəfə artmışdır;
- Dövlət büdcəsinin gəlirləri 21,6 dəfə, xərcləri 22,2 dəfə artmışdır;
- Əhalinin nominal gəlirləri 10,0 dəfə artmışdır;
- Əhalinin banklardakı əmanətləri 36,7 dəfə artmışdır;
- İqtisadiyyatın kreditləşdirilməsi 25,5 dəfə artmışdır;
- 2021-ci ilin yanvar-dekabr aylarında orta aylıq nominal əməkhaqqı 2003-cü ilin yanvar-dekabr aylarına nisbətən 9,5 dəfə artmışdır;
- Pensiyaların orta aylıq məbləği 13,9 dəfə artmışdır;
- İşsizliyin səviyyəsi 9,2 faizdən 6,0 faizədək enmiş, işsiz əhalinin sayı 400,9 min nəfərdən 315,7 min nəfərədək və ya 85,2 min nəfər azalmışdır;
- Yoxsulluq səviyyəsi 44,7 faizdən 5,9 faizədək enmiş, yoxsul əhalinin sayı 3714,2 min nəfərdən 589,9 min nəfərədək və ya 6,2 dəfə azalmışdır;
- Minimum əməkhaqqı 27,8 dəfə artmışdır;
- Əmək pensiyasının minimum məbləği 10,0 dəfə artmışdır;
- Əhalinin sayı 1807,3 min nəfər və ya 21,7 faiz artmışdır;
- Nikahların sayı 0,4 faiz artmışdır;
- Xarici ticarət əlaqələri qurulmuş ölkələrin sayı 124-dən 188-dək və ya 51,6 faiz artmışdır;
- Xarici ticarət dövriyyəsi 6,5 dəfə, o cümlədən idxal 4,5 dəfə, ixrac 8,6 dəfə artmışdır;
- Qeyri neft-qaz məhsullarının ixracı 7,3 dəfə artmışdır;
- Ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların ümumi həcmi 3,4 dəfə artmışdır. 2004-2021-ci illərdə Azərbaycana ümumilikdə 288,9 milyard ABŞ dolları həcmində investisiya qoyulmuşdur;
- Xarici investisiyalar 2,2 dəfə artmışdır. 2004 - 2021-ci illərdə Azərbaycana 142,0 milyard ABŞ dolları həcmində xarici investisiya qoyulmuşdur;
- Qeyri neft-qaz sahələrinə yönəldilmiş investisiyalar 7,2 dəfə artmışdır. 2004-2021-ci illərdə Azərbaycanın qeyri neft-qaz sektoruna 179,5 milyard ABŞ dolları həcmində investisiya qoyulmuşdur;
- 2004-2021-ci illərdə Azərbaycanın digər ölkələrin iqtisadiyyatlarına qoyduğu investisiyaların ümumi həcmi 28,3 milyard ABŞ dolları təşkil etmişdir;
- 2004-2021-ci illərdə 2587,3 min iş yeri yaradılmışdır;
- 2004-2021-ci illərdə əhalinin mənzil fondunun sahəsi 1,6 dəfəyə yaxın artaraq 2021-ci ilin sonunda 200,7 milyon kv.metrə çatmışdır.

Bu siyahını daha da genişləndirmək olar və uğurlar 2022-ci ildə də davam etdirilib. 2022-ci ildə, əsas etibarilə, elektroenergetika sahəsində inqilabi addımlar atıldı. Dövlət başçısının iştirakı ilə ölkədə bir neçə yeni elektrik stansiyaları açılmaqla yanaşı, iki Ərəb ölkəsi ilə alternativ enerji istehsalı sahəsində müvafiq müqavilələr də imzalanıb. Bu isə o deməkdir ki, neft və qaza görə enerji ölkəsi kimi tanınan Azərbaycan həm də elektrik enerjisi ixracatçısı kimi tanınmağa başlayır. Bütün bunlar isə, çox mühüm nailiyyətdir və Azərbaycanın həm iqtisadi, həm də siyasi cəhətdən nüfuzunun artması deməkdir.Həyata keçirilən uzaqgörən siyasət və uğurlu infrastruktur qurucu-luğu sayəsində, eləcə də regionda və dünyada baş verən geosiyasi proseslər nəticəsində Azərbaycan Avroatlantik məkanın mühüm nəqliyyat-tranzit-logistika mərkəzi kimi də aparıcı mövqedədir. Dünyanın əsas yük axını olan Çin-Avropa marşrutu üzərində əlverişli mövqedə yerləşən Azərbaycanın iştirakı ilə daşınmaların 2 həftəyə qədər, daşınma məsafəsinin isə 3000 kilometrə qədər qısaldılması mümkündür. Qeyd edilənlər Azərbaycanın parlaq gələcəyindən, etibarlı iqtisadi inkişafından xəbər verir. Bütün bunların əsasını isə bünövrəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş strategiya təşkil edir.

***Möhübbət Hüseynov***
***Azərbaycan Kooperasiya Universitetinin kafedra müdiri, i.e.d.***
***Zaur Əsədzadə***
***Azərbaycan Kooperasiya Universitetinin doktorantı***

# Cümhuriyyət dövründə səhiyyəmiz

***Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın həyatında böyük və əlamətdar hadisəyə çevrildi. Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il may ayının 28-də "İstiqlal Bəyannaməsi"nin elan olunması ilə yaranmışdır. İstiqlal Bəyannaməsinin qəbul edilməsi bütün türk-müsəlman dünyasında, ümumiyyətlə bütün Şərqdə ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun - parlamentli respublikanın yaradılacağından xəbər verirdi. Azərbaycan Milli Şurasının İstiqlal Bəyannaməsində deyilirdi: Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.***

Hər bir xalqın, dövlətin taleyində təhsilə, insan sağlamlığına hansı səviyyədə münasibət göstərilməsinin müstəsna əhəmiyyəti olub. Sağlam cəmiyyətlərdə vətəndaşların sağlıq durumunun qorunması həmişə önə çəkilib. Azərbaycan xalq Cümhuriyyəti dövründə də bütün sahələrdə olduğu kimi, səhiyyə xüsusi diqqət ayırdı. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti yarandığı gündən əhalinin sağlamlığı qayğısına qalmış və səhiyyə sahəsində ciddi tədbirlər görmüşdür. Tarixi mənbələrdə qeyd olunduğu kimi, bu sahədə ən böyük uğurlardan biri ölkənin səhiyyə sisteminin yaradılması və təşkili işlərinə bilavasitə rəhbərlik edən dövlət icra orqanının — Səhiyyə Nazirliyinin yaradılması idi. Belə ki, Xalq Cümhuriyyəti hökumətinin ilk qərarlarından biri 17 iyun 1918-ci ildə Səhiyyə Nazirliyinin yaradılması ilə əlaqədar idi. Nazir vəzifəsinə 1903-cü ildə Xarkov Universitetinin tibb fakültəsini bitirmiş, ixtisasca cərrah olan Xudadat bəy Rəfibəyov təyin edildi. Nazirliyin 5 əsas şöbəsi - şəhər və məhkəmə tibbi şöbəsi, tibbi statistika, əczaçılıq, kənd səhiyyəsi, baytarlıq və sanitariya şöbələri vardı. Nazirliyin göstərişi ilə əhaliyə dövlət hesabına pulsuz tibbi xidmətə keçilmiş, yeni müalicəxanalar, tibb məntəqələri açılmış, dərman anbarları, laboratoriya binaları tikilmiş, lazımi avadanlıqlar alınmışdı. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, əhaliyə tibbi xidməti yaxınlaşdırmaq, epidemiyalara qarşı mübarizəni gücləndirmək üçün də hərtərəfli planlar işləyib hazırlamış, bununla əlaqədar qərar qəbul etmişdi. Qərarda hökumət təzə təşkil etdiyi Səhiyyə Nazirliyi qarşısında çox ciddi vəzifələr qoymuşdu. Onlardan ən önəmlisi əhalinin sağlamlığının qorunması üçün lazımi şəraitin yaradılması və antisanitariya ilə mübarizənin gücləndirilməsi idi.

## SƏHİYYƏYƏ 43 MİLYON 321 MİN 950 MANAT PUL AYRILDI

Səhiyyə şəbəkəsinin genişləndirilməsinə başlandı. Kənd yerlərində xəstəxanalar, ambulatriyalar, feldşer məntəqələri və s. müalicə müəssisələri açıldı, yeni tibb ocaqlarının bünövrəsi qoyuldu. Dövlət tibb müəssisələrini dava-dərmanla, avadanlıqlarla təmin etmək məqsədilə lazımi tədbirlər görüldü. Bunun üçün dövlət aptek anbarı, laboratoriyası və s. yaradıldı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və Hökuməti sağlamlığın mühafizəsinə dair vəzifələr və tədbirlər barədə bir sıra qanun və qərarlar qəbul etdi. Cümhuriyyət Hökuməti tibb xidməti heyətini genişləndirmək məqsədilə səhiyyə sistemində qısamüddətli tibb işçiləri kursları açdı. Bütün bunların nəticəsi idi ki, Xalq Cümhuriyyəti dövründə kənd yerlərində Səhiyyə Nazirliyinə tabe olan 33 kənd xəstəxanası fəaliyyət göstərirdi.



Onların hər birində 1 həkim, 2 feldşer və xidmətçi tibb bacıları işləyirdi. Bu tibbi personal 6 çarpayılıq kənd xəstəxanalarında xəstələrə xidmət edir, ambulator müalicəyə ehtiyacı olanlara isə pulsuz tibbi yardım göstərirdi. Bu dövrdə qeyri-hökumət tibbi cəmiyyət, birlik və təşkilatlarının da fəaliyyəti geniş vüsət almışdı. Bakı şəhəri həkimlər cəmiyyətinin əsas fəaliyyət istiqaməti sənaye gigiyenası, yatalaq epidemiyasının aradan qaldırılması olmuşdur. Cəmiyyət Bakı Dövlət Universiteti tibb fakültəsinin avadanlıqla təchiz edilməsinə yardım göstərmək üçün Avropanın aparıcı klinikaları ilə əlaqə yaratmışdı. Bakının tanınmış həkimləri təbabətin müxtəlif sahələrində elmi nailiyyətlərin mübadiləsi məqsədilə cəmiyyətdə məruzələr edirdilər. Onun nəzdində boş iş yerlərini qeydə almaq, işsizləri həmin yerlərə yerləşdirmək, onlara vaxtaşırı yardım göstərmək məqsədilə Həkimlərə yardım bürosu yaradılmışdı. 1919-cu ildə Bakıda təsis edilmiş qeyri-hökumət tibb cəmiyyətlərindən biri də Uşaq həkimləri dərnəyi idi. Dərnək uşaqlar və yeniyetmələr arasında yayılmış yoluxucu xəstəliklərin profilaktikası və müalicəsi sahəsində təcrübə mübadiləsi aparır, qabaqcıl müalicə üsullarının tətbiqinə səy göstərir, təbliğat və təşviqat işi ilə məşğul olurdu. 1920-ci ilədək Azərbaycanda, artıq 353 həkim, 450 orta tibb işçisi, 1123 yerlik xəstəxana var idi. 1920-ci ildə kənd xəstəxanaları şəbəkələrini genişləndirmək və bu məqsədlə 35 yeni xəstəxana və 56 feldşer məntəqəsi təşkil etmək barədə qərar qəbul etmiş və bunun üçün 43 milyon 321 min 950 manat pul ayırmışdı. Səhiyyənin dərman preparatları ilə düzgün təminatı tibbi-sağlamlıq işinin başlıca cəhətlərindən biridir. Elə bu səbəbdən də həmin dövrdə Səhiyyə Nazirliyinin əczaçılıq şöbəsi dərman preparatlarının alınmasını öz əlində cəmləşdirmişdi.

## SƏHİYYƏDƏ BÖYÜK CANLANMA

Sovet dövründə də səhiyyəmizin inkişafı dayanmamışdı. Xüsusilə, ötən əsrin 70-ci illərindən başlayaraq, Azərbaycanın sosial-iqtisadi, elmi-mədəni həyatında, o cümlədən səhiyyədə böyük canlanma yarandı. Belə ki, təkcə 1970-1980-ci illərdə Azərbaycanda yüzlərlə iri səhiyyə obyektləri inşa edildi. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi ilə Azərbaycanı geriliкdən, tənəzzüldən xilas etdi. Kənd təsərrüfatının, sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində, əhalinin rifahının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edildi. Heydər Əliyev Azərbaycanın bütün sahələrinin inkişafı ilə yanaşı, səhiyyənin də sivil ölkələr səviyyəsinə yüksəlməsinə çalışmış, bu istiqamətdə böyük nailiyyətlə əldə olunmuşdur. İnsanların fiziki və ruhi sağlamlığı ölkənin inkişafında həlleedici rol oynayan amillərdən olduğundan ötən əsrin 60-cı illərinin sonu - 70-ci illərin əvvəllərində, Dahi Öndər Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrdən səhiyyədə ciddi inkişaf dövrü başladı. Ümummilli Lider Heydər Əliyev səhiyyə quruculuğu ilə əlaqədar qarşıya qoyduğu tədbirlərə kompleks yanaşdı.

Təkcə 1970-1980-ci illərdə Azərbaycanda yüzlərlə iri səhiyyə obyektləri inşa olundu. Köhnə səhiyyə ocaqlarının yenidən qurulması, yenilərinin tikilməsi və ən müasir aparatlarla təchiz edilməsi, eləcə də, əhalinin kütləvi surətdə dispanser qeydiyyatdan keçirilməsi və s. istiqamətdə tədbirlər həyata keçirildi. Qısa zaman məsafəsində, ölkədə Urologiya Xəstəxanası, Diaqnostika Mərkəzi, Neyrocərrahiyyə Mərkəzi, Toksikoloji Mərkəz, Ailə Planlaşdırması Mərkəzi və sair tibb müəssisələri yaradıldı və əhalinin istifadəsinə verildi. Milli Onkologiya Mərkəzinin yeni korpusunun və Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun yeni kompleksinin tikintisinə başlandı. Heydər Əliyev respublikamızın səhiyyə sistemi sahələrinin beynəlxalq miqyasa çıxmasına, onların dayanıqlı və sabit inkişafına əlverişli şərait yaratmışdı. Azərbaycanın sözügedən sistemlərində ölçüyəgəlməz islahatlar aparılır, o zamankı Azərbaycan Dövlət Tibb İnstitutu keçmiş Sovetlər İttifaqında sayılıb-seçilən elm və təhsil məbədlərindən birinə çevrilir, tibbi kadr hazırlığında öz sözünü cəsarətlə deyə bilirdi. Başqa sözlə, tibbi fənlərin diploma qədərki və diplomdan sonrakı tədrisinin, tələbələrin və məzunların peşə hazırlığının, eləcə də abituriyentlərin instituta qəbulunun keyfiyyətinin yaxşılaşdırılması məqsədilə Azərbaycan Dövlət Tibb İnstitutunda internatura kursu, hazırlıq şöbəsi, istehsalat təcrübəsi dekanlığı, daha sonralar Tibbi-biologiya fakültəsi və dekanlığı, Hərbi-tibb fakültəsi və dekanlığı, mətbuat və informasiya xidməti və digər köməkçi şöbələr yaradılmışdı. Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi illərdə yüzlərlə gənc azərbaycanlı alimin müxtəlif ixtisaslar üzrə keçmiş İttifaq səviyyəsində doktoranturaya qəbul edilməsinə də nail olmuşdu.

## 17 İYUN SƏHİYYƏ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI KİMİ QEYD OLUNUR

Ulu Öndər Azərbaycanda hər bir sahənin inkişafı üçün mühüm təşəbbüslə çıxış edirdi, amma heç şübhəsiz ki, onun üçün əsas məsələ – əhalinin sağlamlığının qorunması, tibbi xidmətin yüksək səviyyədə təşkili, Azərbaycan xalqının demoqrafik göstəricilərinin yaxşılaşması idi. Onun bilavasitə rəhbərliyi ilə ölkənin səhiyyə sistemində ardıcıl və məqsədyönlü işlər görüldü, islahatlar aparıldı. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bir sıra fərman və sərəncamların imzalanması, tibb sahəsində həyata keçirdiyi islahatlar səhiyyənin səmərəsinin intensivləşdirilməsinə baza yaratdı. Belə ki, Ulu Öndər Heydər Əliyevin 1998-ci il tarixli Sərəncamı ilə səhiyyə sistemində islahatların təşkili və aparılması məqsədilə Hökumət Komissiyası yaradıldı. Bütün bunlarla yanaşı, səhiyyə sahəsində beynəlxalq əlaqələrin genişlənməsinə də diqqət ayrıldı. 1994-cü ildən başlayaraq, Respublika Səhiyyə Nazirliyində xarici əlaqələr üzrə xüsusi əlaqələr yaradıldı. Bu şöbə yarandığı vaxtdan öz fəaliyyətini milli səhiyyənin Ümumdünya Səhiyyə Təşkilatı, BMT Uşaq Fondu kimi öncül beynəlxalq strukturlar və ölkədə təmsil olunan bir sıra qeyri-hökumət beynəlxalq humanitar təşkilatlarla fəal əməkdaşlığı üzərində qurdu. 1993-2003-cü illərdə səhiyyə sahəsində bir sıra fundamental qanunlar "Əhalinin sağlamlığının qorunması haqqında", "Qan və onun komponentlərinin donorluğu haqqında", "İnsanın immun çatışmazlığı virusunun törətdiyi xəstəliyin (AİDS) qarşısının alınması haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" və s. qəbul edildi.

## "BİZ ARTIQ AZƏRBAYCAN STANDARTLARINDAN DA DANIŞA BİLƏRİK"

Ümummilli Liderin başladığı işlər bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyevin sonsuz qayğısı və diqqətinin məntiqi nəticəsi olaraq, iqtisadiyyatın inkişafı səhiyyədə də görülən işlərin daha böyük vüsətlə davam etdirilməsinə imkan yaratmışdır. Ölkənin dinamik iqtisadi inkişafı demoqrafik və tibbi statistik göstəricilərinin yaxşılaşmasına səbəb olmuşdur. 2004-cü ildən bəri respublikamızda 750-dən çox tibb müəssisəsinin tikilməsi və ya əsaslı şəkildə təmir edilməsi səhiyyənin inkişafı ilə bağlı işlərin nə qədər möhtəşəm olduğunu göstərir. Bu müəssisələrin açılışında Prezident İlham Əliyevin şəxsən iştirakı isə gözəl ənənəyə çevrilib. Qürur hissi ilə qeyd etməliyik ki, Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Hazırda elə bir şəhərimiz yoxdur ki, orada müasir tibb müəssisəsi olmasın. Bu səhiyyə ocaqlarında vətəndaşlarımıza ən müasir standartlar səviyyəsində tibbi xidmətlər göstərilir. Maddi-texniki bazası gücləndirilən tibb müəssisələri dünyanın qabaqcıl səhiyyə ocaqlarından geri qalmır, hətta mübaliğəsiz desək, onları üstələyir. Azərbaycanda səhiyyə sistemində aparılan islahatlar, görülən işlər dünya səviyyəsinə uyğunlaşdırılır. Azərbaycan Prezidenti İlham Əliyev "Biz artıq Azərbaycan standartlarından da danışa bilərik" deməklə, Azərbaycan səhiyyəsindəki gerçəkliklərə əsaslanır: "İndi dünya səviyyəsində müxtəlif elmi mərkəzlər var və bizim mərkəzlər - son illər ərzində təmir edilmiş, yaxud da ki, yeni tikilmiş mərkəzlər bütün cəhətlərdən ən yüksək səviyyədədir: həm keyfiyyət, həm rahatlıq, palataların ölçüləri, xəstələrə, həkimlərə yaradılmış şərait və əlbəttə ki, avadanlıq."

Səhiyyə sahəsində aparılan islahatların davamı olaraq icbari tibbi sığortanın tətbiqi hökumətin səhiyyə sahəsində apardığı islahatların tərkib hissəsidir. İcbari tibbi sığortaya keçid ölkə vətəndaşlarının tibbi xidmətlərə əlçatanlığını təmin etmiş oldu. Müasir və keyfiyyətli tibbi xidməti təmin edən səhiyyənin maliyyələşdirilməsinin yeni forması olan icbari tibbi sığorta xəstəliklərin erkən mərhələdə aşkar edilməsində, daha ağır mərhələyə keçidinin qarşısının alınmasında, ən ucqar kəndlərdə belə yaşayan əhalinin keyfiyyətli tibbi xidmətlərlə təmin olunmasında əhəmiyyətli rol oynayır. Bütün bunlar gələcəyin təminatı olan insan faktorunun daim diqqətdə olduğunu, onların fiziki cəhətdən sağlam və gümrahlığının diqqətdə saxlanıldığını göstərir. İldən-ilə səhiyyəyə ayrılan büdcə vəsaitinin artırılmasının nəticəsi olaraq Azərbaycan səhiyyəsi bu gün dünya səhiyyəsi ilə rəqabət apara biləcək gücə malikdir. Belə ki, müxtəlif orqanlar üzərində əməliyyatların aparılması, orqanların transplantasiyası və s. son illərin nailiyyət və uğurları sırasındadır. Əlbəttə ki, bu əməliyyatların ölkə daxilində aparılması, səhiyyəmizin inkişafına söykənir. Bütün bunlar Azərbaycan səhiyyəsinin müasir dövrümüzdə bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşamasının, ölkəmizin iqtisadi gücünün, siyasi sabitliyinin təzahürüdür.

***Zümrüd BAYRAMOVA***





# Qurtuluş naminə xilas: İrəvanın başqa çarəsi yoxdur...

## Proseslər haraya doğru inkişaf edir?

***Ermənistanın son aylardakı xarici siyasət fəaliyyəti "dejavyü" effekti verir. Hətta belə desək, həmin "strategiya" 2020-ci ilin yaz və yay aylarında, daha dəqiq desək, müharibədən əvvəlki davranışlarını və bəyanatları xatırladır. 44 günlük müharibədə qazanılan qələbədən sonrakı proseslər də get-gedə bu amili daha çox qabartmağa başlayıb. Ermənistanın hərbi-siyasi rəhbərliyinin yenidən rəsmi Bakının səbri ilə oynamaq cəhdləri də belə qənaətə gəlməyə xeyli əsas yaradırdı...***

Lakin İkinci Qarabağ müharibəsindən əvvəlki situasiyanı yenidən xatırlatmağa ehtiyac var. Misal üçün, 2020-ci ilin yazında Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupunun həmsədrləri ilə iki günlük görüşündən sonra Rusiyanın xarici işlər naziri Lavrov bildirdi ki, danışıqlar masası ilə bağlı sənəd var və onun ətrafında müzakirələr davam edir. Məhz bu bəyanatın üzərindən keçən qısa müddətdən sonra Ermənistanın keçmiş xarici işlər naziri Mnatsakanyan heç bir sənədin olmadığını bildirməklə Lavrovu təkzib etdi. Əslində, sözügedən həyasızlığın özü danışıqlardan imtina anlamını daşıyırdı. Və indi də - yəni danışıqlar masasında sülh müqaviləsi variantı olduğu, eləcə də hərəkətlərin məntiqi bütün vasitəçilərə aydın edildiyi bir vaxtda erməni tərəfi substantiv müzakirələrlə bağlı əvvəlcədən müəyyən edilmiş görüşlərdən hər vəchlə yayınır. Bu vasitə ilə isə sülh prosesinin əldə edilməsinə əngəllər yaradır.

### İran-Azərbaycan gərginliyi – Ermənistan buradan da heç nə əldə edə bilmədi...

2020-ci ilin yayında isə Ermənistan həmin vaxtın real situasiyasında qarşıdurma mühitindən bəhrələnmək məqsədi ilə, eləcə də geosiyasi əhəmiyyətini artırmaq ümidi ilə Türkiyənin münasibətlərinin soyuq olduğu Şərqi Aralıq dənizi ölkələri - Misir, Yunanıstan, yunan Kipri və Fransa ilə fəal danışıqları aktivləşdirdi. Bu gün isə, yəni hazırda İranın Azərbaycanla münasibətlərini gərginləşdirdiyi bir zamanda Ermənistan necə deyərlər, quyruğunu suya sallayaraq balıq tutmağa cəhd göstərir, İrəvan Bakı ilə Tehran arasındakı ziddiyyətləri qırmızı xətt üzrə daha da gərginləşdirmək üçün özünü oda-közə vurur. Digər yandan, 2020-ci ildə Ermənistan müharibədən əvvəlki vaxtlarında əlində olan bütün rıçaqlarından maksimum istifadə etməklə Azərbaycana qarşı təzyiqlərin artırılmasına can atırdı. Burada əsas məqsəd Bakının Qarabağ ermənilərinin subyektivliyi ilə razılaşmağa inandırması və artıq gorbagor edilmiş "status" formasını aktuallaşdırmağa səy göstərirdi. Və bütün bunlardan sonra 44 günlük müharibə öz sözünü dedi, Ermənistanın işğalçılıq siyasəti onun başının əzilməsi ilə nəticəsini tapdı. Ancaq daha bir məsələ var... Məsələ ondadır ki, indiki bir zamanda, xüsusilə, məğlub vəziyyətdə olduğu bir vaxtda İrəvanın yenidən baş qaldırmaq cəhdləri kənardan anlaşılmaz görünür. Paşinyanın Azərbaycanın ərazisini tanıması bəyanatı ilə "Qarabağ xalqının müqəddəratı " ilə bağlı fikirləri, ümumiyyətlə, üst-üstə düşmür və əlbəttə ki, Bakını qıcıqlandırır. Amma Ermənistan rəhbərliyi guya "müvəqqəti imtina" məsələsini ortaya atmaqla "qurtuluş naminə ayrılıq" imitasiyasını önə sürür.

Daha dəqiq desək, İrəvan Qarabağ ermənilərinə eyham vurur ki, onlara heç cür kömək etmək gücündə deyil və Azərbaycan torpaqlarına iddia məsələsi, hələlik, saxlanılır sonrakı müddətlərə və s (?!). Ermənistanın faktiki olaraq ikinci dəfə eyni səhvini təkrarlamaq cəhdi, yaxud özünü ikinci dəfə palçığa batırması faktı ortadadır. Hətta belə desək, İkinci Qarabağ müharibəsindən əvvəl baş vermiş Tovuz təxribatının təkrarlanma ehtimalı da mövcuddur. Belə olan halda isə Azərbaycanın yerdə qalan kiçicik bir problemi bu dəfə birdəfəlik (!) həll etmək şansı daha da çoxalmış olur. Əbəs deyil ki, həmin mövcudluğu elə mümkün hərbi toqquşmaların olacağı barədə İrəvana xəbərdarlıqlar edən və bu toqquşma ehtimallarının qarşısını hər hansı yolla almağa çalışan vasitəçilər – Aİ-nin Ermənistandakı missiyası, ABŞ və Rusiya siyasi diplomatik dairələri də çox gözəl görürlər, hiss edirlər. Çox yəqin ki, Ermənistan bu dəfə, ümumiyyətlə, qurtula bilməyəcək və qarşıdakı yaxın müddətlərin birində hər şey onun üçün çox pis nəticələnəcək. İrəvanın artıq düşüncə üçün vaxtı da bitib...

***Afət Tahirqızı***

# Müasir Azərbaycan Ulu Öndərin xalqımıza tarixi mirasıdır




*Daşkəsən rayonunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilmiş tədbir keçirilib*





***"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində mayın 24-də YAP Daşkəsən rayon təşkilatı tərəfindən "Nə qədər Azərbaycan var, mən də varam" mövzusunda tədbir keçirilib.***

Əvvəlcə ümummilli lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb.

Daşkəsən rayon Şəhidlər xiyabanında qəhrəman Vətənin övladlarının məzarları üzərinə tər güllər düzülüb, ruhlarına dualar oxunub. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən "Xalqa bağışlanan ömür" adlı sənədli film nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev bildirib ki, Ümummilli Lider müasir müstəqil Azərbaycanın banisi, xalqımızın xilaskarıdır. Müasir Azərbaycan ulu öndər Heydər Əliyevin xalqımıza tarixi mirasıdır. Bu gün qüdrətli Azərbaycan Heydər Əliyev ideyaları əsasında inkişaf edir, möhtəşəm uğurlar qazanır.

YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçiyev söyləyib ki, ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı xidmətləri misilsizdir. Onun Azərbaycana rəhbərliyinin hər iki dövrü dövlətə, xalqa xidmət nümunəsidir. Müstəqil Azərbaycan var olduqca ümummilli lider Heydər Əliyev də ürəklərdə yaşayacaq.

YAP İdarə Heyətinin üzvü Əfsun Sucayev qeyd edib ki, ümummilli lider Heydər Əliyev bütün dövrlərdə xalqımıza və dövlətçiliyimizə sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev həmişə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparmışdır.

Milli Məclisin deputatı Müşfiq Cəfərov çıxışında müstəqil Azərbaycan dövlətinin memarı, ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsi və əbədiyaşar ideyalarının xalqımızın firavan həyatının təmin olunmasına, dövlətimizin güclənməsinə misilsiz töhfələr verdiyini, Azərbaycanı zirvələrə yüksəltdiyini vurğulayıb. Digər çıxış edənlər də Azərbaycanın müstəqilliyə qovuşmasında, güclü dövlətə çevrilməsində Ulu Öndərin yorulmaz fəaliyyətindən danışıblar.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalına Fəxri fərman, Yeni Azərbaycan Partiyası sıralarına yeni qoşulmuş şəxslərə isə üzvlük vəsiqələri təqdim olunub.

# Azərbaycanda multikultural mühit: vahid ailə modeli



***Azərbaycanda onlarla müxtəlif dini qurum, birlik və icmaların fəaliyyətdə olması ölkəmizdə hökm sürən tolerantlıq mühitini əsaslandıran amillər sırasındadır. Belə mühit demokratik dəyərləri ilə öyünən Qərb ölkələrində təsadüf olunmur. Azərbaycanda dini və milli mənsubiyyətinə görə heç kəsə fərq qoyulmur, onların milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə hörmətlə yanaşılır, vahid ailə kimi yaşayırlar.***



Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycan Yəhudiləri dini icması, Avropa Yəhudilərinin Bakı dini icması, Bakı şəhəri Dağ Yəhudiləri dini icması, Bakı Krişna Şüuru dini icması, "Yeni həyat" Xristian İncil dini icması, Bakı şəhəri "Molokan ruhani-xristian" dini icması, Alban-Udi Xristian dini icması, Gürcü Yəhudilərinin Bakı dini icması, Xilaskar Yevangelik Lüteranların Bakı dini icması və digər qurumlar ölkəmizdə sərbəst və azad şəkildə fəaliyyət göstərirlər. Bu bir daha ona əsaslanır ki, molokanlar, yəhudilər, tatlar, saxurlar, ləzgilər üçün Azərbaycanda geniş imkanlar yaradılıb və hər bir xalqın nümayəndəsi rahat və azad yaşayırlar. Azərbaycanda təkcə yəhudilərin 7 sinaqoqu, 2 orta məktəbi, 1 kolleci, 3 uşaq bağçası və Yəhudi Evi fəaliyyət göstərir. Qeyri-xlqların yaşadığı Krasnaya Sloboda, İvanovka kimi kəndlərə daima dövlətimiz tərəfindən diqqət və qayğı göstərilir.

Qəbələnin qapısından içəri daxil olan insanlar azərbaycanlıların, udilərin, ləzgilərin, rusların və digər etnosların buradakı yaşam tərzini gördükdə heyrətlənir və hətta qibtə belə edirlər. Çoxmillətli və fərqli mədəniyyətlərin qovuşduğu Qəbələdə tarixboyu hansısa qarşıdurmalara, narahatçılıq doğuran məqamlara rast gəlinməyib. Bu məkanın milli tərkibinə nəzər salsaq görərik ki, burada yaşayan əhalinin 80 faizə qədərini azərbaycanlılar, digər hissəsini isə ləzgilər, udilər, türklər və başqa millətlər təşkil edir. Müxtəlif xalqların nümayəndələri yaşadıqları üçün burada ümumtəhsil məktəblərinin ibtidai siniflərində ləzgilər və udilər üçün öz ana dillərində dərslər keçirilir.

Bu gün Nic qəsəbəsinin tolerantlığın kiçik modeli kimi də qəbul edilməsi də əbəs deyildi. Qəsəbədə üç kilsə, iki məscid, habelə müsəlmanların və xristianların ziyarət etdikləri müqəddəs yerlər var. Onu da bildirək ki, 10 minə yaxın udinin 4 minə yaxını məhz burada, Qəbələnin Nic qəsəbəsində gözəl, rahat bir şəraitdə yaşayır. Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən bərpa olunub.

Bu gün ölkəmizin istənilən bir məkanında azlıq təşkil edən xalqlara dövlətimiz tərəfindən dilini, dinini, adət-ənənələrini, mədəniyyətlərini qoruyub saxlamaq və inkişaf etdirmək üçün hər cür şərait yaradılıb. Və bu Azərbaycanın multikulturalizm modelidir ki, öyrənilir və tədqiq olunur.

Əlbəttə ki, mövcud qanunlar və mövcud mühit Odlar diyarından dünyaya bir mesajdır. Xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələrinin birgə sülh və əmin-amanlıq şəraitində yaşaması nümunədir. Azərbaycanın multikulturalizm modelini öyrənmək istəyən hər kəs ölkəmizin istənilən məkanına üz tutsa, mövcud mühiti görə bilər. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin vurğuladığı kimi, "Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir". Belə böyük dəyərlərə sahib olmaq hər xalqın həyatına həkk olunmayıb. Azərbaycan dünya ölkələrinə müxtəlif icmaların dinc şəraitdə və qarşılıqlı hörmət münasibətində birlikdə yaşaya bilmək modeli kimi nümunə göstərə bilir. Müasir dünyada müxtəlif dövlət qurumlarında qeyri-xalqların nümayəndələri təmsil olunur, ölkəmizin ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayırlar. Qarabağ uğrunda gedən döyüşlərdə ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri həmrəy oldular. Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda müharibədə iştirk etdilər. Azərbaycan vətəndaşı olaraq bir yumruq altında birləşdilər və silaha sarıldılar. Bu birlik, həmrəylik sağlam mühitə, tolerant və mültikultural mühitə söykənir. Hətta Şuşada keçirilən "Xarıbülbül" musiqi festivalında ölkəmizdə yaşayan qeyri-xalqların təmsilçiləri iştirak etdilər. Dövlət başçısının bildirdiyi kimi, "Bu da bir daha onu göstərir ki, Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır. Uzun fasilədən sonra Şuşada təşkil edilmiş "Xarıbülbül" festivalının ilk günündə Azərbaycanda yaşayan xalqların nümayəndələri səhnəyə çıxmış və öz mədəniyyətlərini nümayiş etdirmişlər".

Ölkəmizdəki etnik rəngarənglik maraq doğurur. Ləzgilərin (180,3 min nəfər, 2009) əksəriyyəti respublikanın Qusar rayonunda yaşayır. Quba, Xaçmaz, İsmayıllı və Qəbələ rayonlarında da ləzgi kəndləri var. Mütəxəssislərin fikrincə, ləzgilərin əcdadlarından biri qədim alban tayfası olmuş leqlərdir. Dini mənsubiyyətlərinə görə müsəlmandırlar. Saxurlar isə (12,3 min nəfər, 2009) respublikanın Zaqatala, Qax və Balakən rayonlarında məskunlaşmışlar. Saxurlar Qafqaz Albaniyasının qədim sakinlərindən biridir. 15-ci əsrdə saxurlar Cənubi Dağıstanı tərk edərək Azərbaycanın əkinçilik üçün yararlı olan torpaqlarında məskunlaşmışlar. 19-cu əsrin ortalarınadək İlisu sultanlığının tərkibində olmuşlar. Həmin dövrdən başlayaraq onların azərbaycanlılarla etnik-mədəni və ticarət əlaqələri güclənmişdir. Saxurlar etnik baxımdan azərbaycanlılara çox yaxındırlar. Hər bir etnik xalq haqqında maraqlı faktlar var kt, bu Azərbaycandakı mühitin göstəricisidir.

Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda dövlət-din münasibətləri tənzimlənib, dini sahədə sabitliyə nail olunub, konfessiyalar arasında dözümlülük mühiti dövlət səviyyəsində qorunub saxlanılır. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahə də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev bütün sahələrə olduğu kimi, bu sahəyə də ayırdığı diqqət nəticəsində milli-mənəvi dəyərlərimizin yaşadılması, tarixi-dini abidələrimizin bərpası, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində regionun lider dövlətinə çevrilib. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində ölkədə ictimai-siyasi sabitlik, milli-mənəvi birlik, multikultural və tolerant mühit formalaşıb.

Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Sosial bir hadisə olan multikulturalizm və tolerantlıq cəmiyyətdə əmin-amanlıq, bəşəriyyətdə isə sülh deməkdir. Təbii ki, multikulturalizmin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, başqa sözlə, ədalətin bərqərarı deməkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Üçüncü dünya müharibəsi QAPIDADIR!



*Ötən 14 ay ərzində Rusiya-Ukrayna müharibəsində 600 min insan həyatını itirib, 800 minə yaxın insan isə yaralanıb*

Rusiya - Ukrayna müharibəsi getdikcə daha amansız və qəddar xarakter alır. Hər gün yüzlərlə insan öldürülür, yaralanır, onlarla bina, sənaye obyekti dağıdılır. Tərəflər isə dayanmaq, problemi sülh yolu ilə həll etməyə cəhd etmir. İstər Rusiya, istərsə də Ukrayna özlərini haqlı hesab edirlər. Reallıqda isə ikinci mövqeyində daha haqlıdır. Çünki Rusiya suveren, müstəqil Ukraynaya hücum edərək şəhərlərini bombalayır, insanları qətlə yetirir. Rəsmi Moskva isə hücumunu Ukraynanın Qərbin qucağında oturmasına və avropalıların qonşuluğunda yeləşməsinə etiraz etməsi ilə əlaqələndirir. Bütün hallarda itirən sadə insanlardır.

### 18 milyon ukraynalı ölkəsini tərk edib

Bu günə qədər 210 min rusiyalı əsgər həyatını itirib, 350 min əsgər isə yaralanıb. Ukrayna tərəfinin itkiləri daha çoxdur. Qərb analitiklərinin açıqlamalarına istinad etsək, ötən bir il ərzində 18 milyona yaxın ukraynalının ölkəni tərk etdiyi məlum olub. Ukrayna bir il ərzində 400 min insan itkisi ilə üzləşib. Müharibə qoca, cavan, uşaq bilmədən hər kəsi ölümlə üz-üzə qoyur. BMT-nin Uşaq Fondunun (UNICEF) icraçı direktoru Ketrin Russell sosial media hesabından etdiyi paylaşımda bildirib ki, Rusiya-Ukrayna müharibəsində indiyədək 500-dən çox uşaq həyatını itirib: “Ukraynalı uşaqlar və ailələr üçün daha bir faciəli həddi keçilib. Müharibənin başladığı 2022-ci ilin fevralından bu yana ən azı 501 uşaq öldürülüb”.

Həqiqi ölənlərin sayının UNICEF-in təsdiq etdiyi rəqəmlərdən çox ola biləcəyini qeyd edən K.Russell müharibədə ən az 1000 uşağın yaralandığını qeyd edib: “Ölənlərlə əlaqəli açıqlanan hər rəqəmin arxasında dağılan və əbədi olaraq dəyişən bir ailə dayanır. Bu, ürək ağrıdır. Nəhayət, uşaqların və ailələrin sülhə ehtiyacı var və bu, tezliklə olmayacaq”.

BMT-nin tərksilah məsələləri üzrə ali nümayəndəsinin müavini Adedeji Ebo bildirib ki, Rusiyanın Ukraynaya hərbi təcavüzü nəticəsində 8,8 min mülki şəxs ölüb, 14,9 mindən çox insan yaralanıb: “24 fevral 2022-ci il tarixindən bəri BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının İdarəsi Ukraynada 23 821 mülki itkini hesablayıb: 8 836 nəfər ölüb, 14 985 nəfər yaralanıb. Faktiki rəqəmlər çox güman ki, daha yüksəkdir”.

İqtisadi itkilər isə milyardlarla dollar hesab olunur. Dünya Bankının iqtisadçıları yazırlar ki, Rusiyanın Ukraynaya müdaxiləsi qlobal iqtisadiyyata ziyan vurdu, enerjidaşıyıcılar bazarlarının sabitliyini pozdu: “Bir çox inkişaf etməkdə olan ölkədə ərzaq qıtlığı və yoxsulluğu daha da gərginləşdirdi”. Müharibənin qiymətləndirməsindən yazan iqtisadçılar qeyd edirlər ki, hazırda Dünya Bankı 2022-ci ildə, əvvəlki 4,1 faiz proqnozu müqabilində, dünya iqtisadiyyatının cəmi 2,9 faiz artımını gözləyir: “İƏİT isə öz proqnozunu daha əhəmiyyətli ölçüdə - 4,5 faizdən 3 faizədək azaldıb. Əldən buraxılmış 1-1,5 faiz artım – nəhəng məbləğdir, nəzərə alınsa ki, bu il ilk dəfə dünya ÜDM-si 100 trilyonu aşmalıdı”.

### Belqorod vilayətində əhali qaçqına çevrilir

Ukrayna Qərbdən hərbi, siyasi, maliyyə dəstəyi almaqla Rusiyanın intensiv hücumlarına layiqli cavab verməkdədir. Hətta müəyyən ərazilərdə hücuma keçərək itirilmiş əraziləri geri qaytarır. Bununla yanaşı, ara-sıra Rusiyanın şəhərlərini də atəşə tutaraq hərbi və sənaye obyektlərinə ciddi ziyan vurur. İki gündür Ukrayna silahlı qüvvələri







Rusiyanın sənaye şəhəri olan Belqorodda əməliyyatlar keçirir. Müəyyən uğurlara nail olan ukrayna silahlıları əməliyyatlarını genişləndirməkdədir. Ukrayna tərəfindən döyüşən “Azad Rusiya Legionu” və “Rusiya Könüllü Korpusunun döyüşçüləri” Rusiyanın Belqorod vilayətinin Kozinka kəndini və Qrayvoron rayon mərkəzini tutublar. Vilayətin qubernatoru Vyaçeslav Qladkov rayon mərkəzinə Ukraynanın diversiya-kəşfiyyat qrupunun daxil olduğunu təsdiq edib. O deyib ki, iki dinc sakin yaralanıb.

Putinin mətbuat katibi Peskov bildirib ki, bu barədə prezidentə məruzə edilib. “Hazırda onların Rusiya ərazisindən çıxarılması və məhv edilməsi üçün əməliyyat aparılır” - deyə Peskov bildirib. Maraqlıdır ki, rəsmi Kiyev Belqorodda aparılan əməliyyatların Ukrayna müdafiə nazirliyinə əlaqəsi olmadığını bildirib. Ukrayna Silahlı Qüvvələrinin Baş kəşfiyyat idarəsinin nümayəndəsi bəyan edib ki, Belqorod ərazisində “Azad Rusiya” legionu və “Rusiya Könüllü Korpusunun döyüşçüləri fəaliyyət göstərir. Rusiya Müdafiə Nazirliyi Artemovsk şəhərində məğlubiyyətə Ukrayna silahlılarının dinc əhaliyə qarşı terror aksiyaları həyata keçdiyini bəyan edib. Mayın 22-də Belqorod vilayətinin Qraivoronski rayonunda Kozinka beynəlxalq keçid məntəqəsini, eləcə də bir sıra digər mülki obyektləri intensiv artilleriya atəşinə tutduqdan sonra Ukrayna millətçi birləşməsinin bölməsi Rusiya Federasiyası ərazisinə soxulub.“Antiterror əməliyyatı zamanı hava zərbələri, artilleriya atəşi və Qərb Hərbi Dairəsinin Dövlət Sərhəd mühafizə bölmələrinin fəal hərəkətləri nəticəsində millətçi birləşmələrin qarşısı alınıb və darmadağın edilib. Millətçilərin qalıqları yenidən Ukrayna ərazisinə qovuldu və orada onlar tamamilə məhv edilənə qədər atəşə tutulmağa davam etdilər. 70-dən çox ukraynalı terrorçu, dörd zirehli döyüş maşını və beş pikap məhv edilib”, - Rusiya Müdafiə Nazirliyinin sözçüsü İqor Konaşenkov son brifinqdə bildirib.

### Rusiya-Ukrayna müharibəsi amansız xarakter alır

General-leytenant İqor Konaşenkov Ukrayna Silahlı Qüvvələrinin təmas xəttində ümumi itkiləri barədə də məlumat verib: Kupyanski istiqamətində 110-a qədər, Krasno-Limanski istiqamətində 65-dən çox, Donetsk istiqamətində 375-ə qədər ukraynalı hərbçi həlak olub. Cənubi-Donetsk və Zaporojye istiqamətlərində 150-dən çox, Xerson istiqamətində 20-dən çox. İqor Konaşenkov onu da bildirib ki, 720 ukraynalı muzdlusu ilə yanaşı, Ukraynanın üç diversiya-kəşfiyyat qrupunu, ABŞ istehsalı olan AN/TPQ-50 əks-akkumulyator radarını, Ukrayna Silahlı Qüvvələrinin 60 və 64-cü mexanikləşdirilmiş briqadalarının iki silah-sursat anbarını məhv edib: “Operativ-taktiki və ordu aviasiyası Ukrayna Silahlı Qüvvələrinin 24-cü mexanikləşdirilmiş briqadasının komanda məntəqəsinə, hərbi texnika üçün iki yanacaq anbarına, Ukrayna Silahlı Qüvvələrinin 96 artilleriya bölməsinə, 112 rayonda atəş mövqelərinə, canlı qüvvə və hərbi texnikaya zərbələr endirib. gün ərzində artilleriya ilə vuruldu.Konaşenkov bir gündə 13 HIMARS Uraqan reaktiv yaylım atəş sistemini və 11 Ukrayna pilotsuz təyyarəsini ələ keçirən hava hücumundan müdafiə bölmələrinin döyüş işini qeyd edib”.

Ukrayna tərəfinin açıqladığı məlumatlara görə, müharibədə Rusiya 210 minə yaxın əsgər və zabit itirib: “Rusiya 3094 ədəd tank, 6159 ədəd zirehli döyüş maşını, 2082 ədəd artilleriya sistemi, 437 ədəd RYAS (reaktiv yaylım atəş sistemi), 218 hava hücumundan müdafiə sistemi, 285 ədəd hərbi təyyarə, 276 ədəd helikopter, 4 826 ədəd avtomobil texnikası, 1 865 ədəd PUA, 723 qanadlı raket, 17 gəmi/qayıq, 184 xüsusi avadanlıq itirib”.

Rusiya - Ukrayna müharibəsinin amansız xarakter alması dünyanın sabahının ürəkaçan olmadığını deməyə əsas verir. O mənada ki, insan itkiləri, qlobal iqtisadi böhran, ekaloji tarazlığın pozulması bütün dünyanın gələcək taleyini təhlükə altında qoyur. Onu da vurğulamaq lazımdır ki, Rusiya tərəfi hər fürsətdi rəqiblərini nüvə silahı ilə hədələyir. Təbii ki, Rusiya müharibədə uduzacağı təqdirdə, nüvə silahından istifadə etməli olacaq. Bu halda çox ehtimal ki, ilk hədəf Polşa və Almaniya dövlətləri olacaq. Məhz bundan sonra ABŞ və Avropanın aparıcı dövlətləri məcburiyyət qarşısında qalıb, müharibəyə qoşulmalı olacaqlar ki, bu da dünyanın sonunu gətirə bilər. Nəzərə almaq lazımdır ki, Rusiya nüvə silahı daşıyan savaş təyyarələrini müəyyən etdiyi ərazilərə çıxarıb. Digər tərəfdən, rusiyalılar nüvə təlimlərini həyata keçiriblər. Rus kəşfiyyatı bəzi mənbələrlə o fikirləri bölüşüblər ki, Rusiyanın NATO ilə savaşı qaçılmazdır. Birləşmiş Millətlər Təşkilatının yaydığı açıqlamada da yaxın gələcəkdə Rusiya və Ukrayna arasında sülh danışıqlarının başlanma ehtimalı mümkünsüz hesab edilir. Bu səbəbdən də BMT hazırda sülh prosesinə start cəhdlərindən daha çox məhz Türkiyənin vasitəçiliyi ilə yaradılmış ”taxıl dəhlizi”nin qorunmasına yönəlik fəaliyyətə üstünlük verir. “Taxil dəhlizi” ilə bağlı sazişin icra edilməsi ərzaq bazarlarına müsbət təsir göstərdi. Nəticədə bir ton taxılın qiyməti 440-450 ABŞ dollardan 350-355 dollara endi. Ukrayna –Rusiya müharibəsi davam edəcəyi təqdirdə, “Taxıl dəhlizi”nin mövəqqəti xarakter daşıyacağı ehtimal olunur. Çünki bir neçə dəfə Rusiya sazişdən çıxmağa çalışıb. Uğursuzluq qabarıq şəkildə özünü göstərəcəyi təqdirdə, rəsmi Moskvanın dəhlizi bağlayacağı şübhəsizdir. Bu isə yenidən ərzaq qıtlığının yaranmasına gətirib çıxaracaq. Ən dəhşətlisi isə Ukrayna-Rusiya müharibəsi fonunda dünya müharibəsinin baş verməsidir. Görünən ondan ibarətdir ki, üçüncü dünya müharibəsinin qarşısının alınmasına cəhdlər göstərilmir. Deməli, bəşəriyyətin dinc sakinləri təhlükə ilə üz-üzədir.

**İ.ƏLİYEV**

# Qarabağ: Laçının Azərbaycan iqtisadiyyatındakı rolu




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***

## IV YAZI

### Hər il may ayında Laçının işğalını yad edirdik, 3 ildir ki, azadlığını qeyd edirik

Qarabağ işğalda olduğu müddətdə Azərbaycan iqtisadiyyatından əhəmiyyətli pay da işğal edilmiş sayılırdı. Çünki Qarabağın təbii ehtiyatlarla zəngin torpağı ölkəmizin iqtisadi gəlirlərində əhəmiyyətli paya malik idi. Belə ki, Dağlıq Qarabağda 5 qızıl, 7 civə, 2 mis, 1 qurğuşun və sink, 1 daş kömür, 6 gəc, 4 vermikulit, 1 soda istehsalı üçün xammal, 12 əlvan və bəzək daşları, 10 mişar daşı, 21 üzlük daşı, 9 gil, 20 sement xammalı, 8 müxtəlif növ tikinti daşları, 6 əhəng xammalı, 10 qum-çınqıl, 4 tikinti qumu, 1 perlit, 8 pemza-vulkan külü, 16 yeraltı şirin su və 11 mineral su yatağı var. Bundan əlavə Qarabağ nadir bitki örtüyü ilə də dünyada məşhur olan bir ərazi olub.



### Viran Laçın, abad Laçın...

Laçın rayonu Azərbaycanın cənub-qərbində dağlıq ərazidə yerləşir. Şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı, qərbdən isə indiki Ermənistanla həmsərhəddir. Laçın rayonu 1930-cu ildən inzibati ərazi vahidi statusu alıb.1992-ci il mayın 18-də ermənilər tərəfindən işğal edilən rayonun 63 min 341 Azərbaycan vətəndaşı 28 il məcburi köçkün statusu daşıdı. İşğal nəticəsində 1835 kvadrat kilometr ərazisi olan rayon və onun 121 kəndi darmadağın edilib.

Laçın rayonunun iqtisadiyyatının əsasını vaxtilə heyvandarlıq, bitkiçilik, arıçılıq və qismən də bağçılıq və bostançılıq təşkil edib. Eyni zamanda, rayonda 1992-ci ilə qədər yağ-pendir, konserv zavodu, ət tədarükü və qəbulu məntəqəsi, ağac emalı sənayesi, Sumqayıt alüminium və maşınqayırma zavodlarının filialları, iki ədəd asfalt zavodu, yüngül sənaye və yerli sənaye kombinatları, beton zavod, yun və gön-dəri qəbulu müəssisəsi, 23 tikinti idarəsi, mərmər, əhəng, pemoksol və toxuculuq sexləri, avtonəqliyyat müəssisəsi,ticarət, ictimai iaşə, rabitə, iki ədəd daş karxanası və digər müəssisələr fəaliyyət göstərirdi.

### İşğaldan öncə Laçın başdan-başa yenilənmişdi

Laçının iqtisadiyyatının əsasını heyvandarlıq təşkil etsə də, işğalından öncəki yaxın tarixində sənaye və kənd təsərrüfatının digər sahələri də geniş inkişaf etmişdi. İqtisadi inkişafın özülünü yolar təkil edir, elə Laçın üçün də belə oldu. Şosse yolu Laçına 1950-ci illərin əvvəllərində çəkilməyə başlamışdı. Paytaxt Bakı ilə Laçının ara məsafəsi 450 km, Xankəndi dəmiryolu stansiyası ilə ara məsafəsi isə 60 km idi. Rayon təbii qaz və elektrik enerjisi təminatı yüksək səviyyədə idi, Laçın rayonunun elektirikləşməsi və radiolaşması işlərinə 1962-ci ildən başlanmışdı.

1992-ci ilə qədər şəhər və kəndlər xeyli abadlaşdırılmış, şəhərdə 1000 nömrəlik avtomat-telefon, televiziya ötürücü stansiyaları qurulmuş, bütün kəndlər başdan-başa telefonlaşdırılmış, radiolaşdırılmış, elektrikləşdirilmiş, şəhərə və rayonun 53 kəndinə təbii qaz çəkilmişdi. Rayonda təhsil, mədəniyyət, məişət, səhiyyə obyektləri, heyvandarlıq kompleksləri və sair sosial-mədəni və kənd təsərrüfatı obyektləri tikilib istifadəyə verilmişdi. Kəndlərə şüşə kimi düz yollar çəkilmiş, Laçın-Şuşa yolu əsaslı surətdə yenidən tikilmiş, zavodlar, fabriklər, iaşə müəssisələri istifadəyə verilmişdi. Ümumilikdə rayonda 133 idarə və müəsisə, o cümlədən 23 tikinti və 16 sənaye müəssisələri, asfalt-beton zavodu fəaliyyət göstərirdi.

### İnfrastruktur və təminat yüksək səviyyədə idi

Laçında bir avtovağzal, 82 avtobus dayanacağı, 92 ədəd körpü, 2130 km uzunluğunda avtomobil yolları, 33 su anbarı, 1187 km su kəməri, 15 km uzunluğunda kanalizasiya xətti, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaqdoldurma stansiyası, 2636 km elektrik hava xətləri, 498 km, qaz kəməri, 10200 km radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər mövcud idi.

Rayonda məktəbəqədər müəssisədə minlərlə uşaq tərbiyə olunurdu. 17 ibtidai, 36 səkkizillik, 36 orta məktəbdə 14652 uşaq təhsil alırdı. Laçının 54 klubu, 67 kitabxanası vardı. Rayonda 470 çarpayılıq 13 xəstəxana, 30 feldşer-mama məntəqəsi, sanitar-epidemioloji stansiya, 52 həkim və 287 orta tibb işçisi var idi.



### Laçının işğaldan azad olması iqtisadiyyata böyük fayda verəcək

Laçın rayonun iqtisadiyyatının əsasını heyvandarlıq və əkinçilik təşkil edirdi. Rayonda ermənilərin işğalına qədər 23 sovxoz var idi. Kənd təsərrüfatına yararlı sahə 76 min hektar idi. Bunun 11,1 hektarı şum yeri, 0,3 min hektarı çoxillik bitkilər üçün nəzərdə tutulmuş ərazi, 5,2 min hektarı biçənəklər, 56,7 min hektarı isə otlaqlar idi. 10 min hektar əkin sahəsinin 33%-də dənli və paxlalı bitkilər becərilirdi, 67%-də isə yem bitkiləri əkilirdi. Rayonun ərazisində 46,2 min qara mal, 205,9 min baş xırdabuynuzlu heyvan bəslənirdi.

Dünyada ən nadir ağac sayılan qırmızı dəmir ağac, qırmızı palıd, Eldar şamı meşələri, çoxlu mineral suları, kobalt, uran, civə, qızıl, dəmir, boyaq və müxtəlif rəngli mərmər yataqları, həddindən çox dərman bitkiləri var idi. İşğalda olduğu illər ərzində erməni vandalları tərəfindən bütün mədəni, maddi sərvətləri talanaraq xarabalığa çevrilən Laçın yenidən dirçəlir, itirdiyi gücünü, sərvətlərini yenidən bərpa edir.



### Laçının qiymətli mədənləri və müalicəvi bulaqları

Laçın rayonunda ümumi civə ehtiyatı 1124, Oton olan üç Nazranlı, Çilgəzçay, Sarıbulaq mədənləri, ehtiyatı 2533 min m3 olan və istismara cəlb edilən, üzlük daşı istehsalına yararlı Hoçaz mərmərləşmiş əhəngdaşı, ümumi ehtiyatı 5125 min m3 olan mişar daşı istehsalına yararlı 2 Ağoğlan və Əhmədli tuf mədəni, təbii ehtiyatı 4457 min ton olan və əhəng istehsalına yararlı Laçın əhəngdaşı; ehtiyatı 998 min m3 olan və kərpic - kirəmid istehsalına yararlı Novruzlu gil yatağı var idi.

Həmçinin, işğala məruz qaldığı vaxt ehtiyatı 2144 min m3 olan Quşçu Rmza mədəni, ehtiyatı 15794 min m3 olan Yuxarı Həkəriçay qum - çınqıl qarışığı yatağı, ümumi ehtiyatı 10449 min ton otan üç vulkan külü, istismar ehtiyatları 4300 min m3/gün olan Minkənd mineral su yataqları vardı.

Laçın rayonu Alıcan kəndindən başlayaraq şimal-qərb istiqamətində yan suxurları yararaq üzə çıxan maqmatik suxurlara da malikdir. Nağdalı, Mirik, Əhmədli, Hacıxanlı, Minkənd ərazilərində isə narzan tipli müalicə əhəmiyyətli bulaqlar var. İpək- uran yataqları ilk dəfə 1974-cü ildə Sovet arxeoloqları tərəfindən kəşf edilmişdi və əhəmiyyətli sərvət sayılır. Məhz bu sadaladığımız özəllikləri Laçın rayonunu ermənilər üçün havayı gəlir mənbəyinə çevirmişdi. İllərlə bu sərvətlər tapalanaraq ermənilər tərəfindən vəhşicəsinə yağmalanıb.

### Dünyada məşhur "Qasımuşağı" xalçaları

Bundan başqa, Laçın rayonunun ərazisində toxuculuq sənəti də inkişaf etmişdi. Burada yundan toxunan at çulu, palaz, kilim, xalça, zili, xurcun öz gözəlliyi və orijinallığı ilə seçilirdi. Eyni zamanda, dünyada "Qasımuşağı" adı ilə tanınan xalçanın yaranması Laçın rayonunun adı ilə bağlıdır. Qasımuşağı xalçaları Azərbaycan xalçaçılıq məktəblərindən olan Qarabağ xalçaçılıq məktəbinin Cəbrayıl qrupuna aid edilən xovlu xalçalardır. "Qasımuşağı xalçaları" Zəngəzur mahalının Hacısamlı nahiyəsinin, yəni indiki Laçın rayonunun inzibati ərazi vahidində yerləşən Qasımuşağı obasının adı ilə bağlıdır.

Qasımuşağı obasına daxil olan kəndlərdə yaxın keçmişə qədər yüksək növ xalçalar istehsal olunurdu. Qasımuşağı xalçaları ilə yanaşı Azərbaycan xalçaçılıq məktəblərindən olan digər xalçaların bir çoxu Qasımuşağı obasında toxunurdu. Qasımuşağı xalçası yüksək keyfiyyətli, parlaq, yumuşaq, əl üsulu ilə əyrilən, təbii boyaqlarla boyadılmış yun iplərlə hanada toxunurdu. Bu xalçalara dünyada maraq böyük idi. Lakin işğal zamanı obanın bütün mədəni sərvəti yağmalandı.

Həm təbii yataqları, həm mədəni sərvətləri, həm də iqtisadi imkanları Laçın rayonunun bölgə iqtisadiyyatının inkişafında önəmli fiqura çevrilməsinə səbəb olacaq. Azərbaycanın ərazi baxımından ən böyük rayonlarından biri olan Laçın ölkə iqtisadiyyatına bir çox sahələrdə töhfə verə biləcək.

*Lalə Mehralı*

SON SƏHİFƏ

# SƏS

25 may 2023-cü il

# Olimpiadalara qatılmaq şagirdlərə nə qazandırır?

*“Olimpiadalara qatılmaq şagirdlərə nə qazandırır sualına bircə kəlmə ilə cavab versək - Çox şey. Ən başlıcası isə özünə inam və güvən, öz yaşıdları, müəllimləri və valideynləri qarşısında qürur və fəxarət hissi”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Nadir İsrafilov deyib.*



TƏHSİL EKSPERTİ AÇIQLADI



Onun sözlərinə görə olimpiadalar istedadlı uşaq və gənclərin aşkara çıxarılmasında, onların həvəsləndirilməsi ayrı-ayrı fənlərə maraqlarının artmasında o cümlədən də təlimdə sağlam rəqabətin yaradılmasında müstəsna rol oynayır: “Olimpiadaların keçirilməsində əsas məqsəd şagirdlərdə keyfiyyətli təhsilalma, biliklərə nüfuz etmək və ayrı-ayrı fənlər üzrə istedadı və yaradıcı təfəkkürü ilə fərqlənənləri aşkar etməkdir”.

Nadir İsrafilov sözlərinə belə davam edib: “O da xüsusilə qeyd edilməlidir ki, son illər Respublikamızda olimpiada hərəkatı geniş vüsət alıb, istedadlı uşaqların aşkar olunması və onların mövcud potensiallarından məqsədyönlü istifadə edilməsi istiqamətində bir sıra layihələr həyata keçirilib. Olimpiada qaliblərinin mükafatlandırılması tanınmış ziyalılarımızın iştirakı ilə ən yüksək səviyyədə təşkil olunur və keçirilir.

Bu gün, istedadlı uşaqlarla iş və bu istiqamətdə görülən müxtəlif yarış, müsabiqə, yerli və beynəlxalq fənn olimpiadaları ümumi təhsilin ayrılmaz tərkib hissəsini təşkil etməklə, təhsilalanlarımıza yeni-yeni uğurlara imza atmaq üçün əlavə stimul yaradır.

Təcrübə göstərir ki, məhz istedadlı şagirdləri vaxtında aşkar etməklə, onların fərdi bilik, bacarıq və vərdişlərini qabiliyyətlərinə uyğun istiqamətləndirməklə gələcəkdə ölkə üçün peşəkar mütəxəssislər yetişdirmək olar, ixtisasından asılı olmayaraq səriştəyə əsaslanan şəxsiyyətyönümlü vətəndaş yetişməsinə nail olmaq mümkündür. Respublika üzrə Fənn Olimpiadalarının qaliblərinə ali məktəblərə qəbul zamanı güzəştlər edilməsi, beynəlxalq olimpiada qalibləri üçün müxtəlif dünya universitetlərinin qapılarının açıq olması bu sahəyə olan marağı daha da artırır”.

**Ayşən Vəli**

# Əmlak bazarında qiymət artımına səbəb nədir?

*“Hər il İpoteka və Kredit Zəmanət Fondu müəyyən ipoteka üçün müraciət edən şəxslərə maliyyə yardımı ayırdıqda əmlak bazarında çox ciddi artım baş verir. Nəzərə almalıyıq ki, ötən il satılan əmlakların təxminən 65%-i ipoteka krediti, bankdaxili və ya digər kredit şərtləri ilə satılan mənzillər oldu”. Bu sözləri SİA-ya açıqlamasında əmlak eksperti Elnur Fərzəliyev deyib.*



Onun sözlərinə görə, ipoteka predmetinə çevrilən mənzillər yeni tikili binalardakı çıxarışlı mənzillər və köhnə 9 mərtəbəli binalardakı mənzillər oldu: “İki, üç, dörd və daha çox beşmərtəbəli binaların əksəriyyəti istismar müddətini bitirdiyinə görə onlar ipoteka predmetinə çevrilə bilmir. Bu baxımdan hər il ipoteka kreditləri ayrılan vaxt əmlak bazarında həddindən çox müştəri olduğu üçün qiymət artımı baş verir. Yəni, əmlak bazarında qiymətlərin artmasına səbəb həm də alıcılıq qabiliyyətinin çox olmasıdır”.

Ekspert sözlərinə davam edərək bildirib ki, alternativ mənzillər olmadıqda artıq satışa çıxarılanların qiymətlərində artım müşahidə olunur: “Vətəndaşların əziyyət çəkdiyi məsələlərdən biri də mənzil tapmaqda yaranan problemlərdir. Doqquzmərtəbəli köhnə sovet binaları ipoteka ilə verilə bilir. Onların da sayı azdır. Yeni tikili binalarda mənzillərin ümumi sahəsi böyük olduğuna görə satış qiymətləri daha yüksək olur. Bu da ipoteka ilə mənzil alan vətəndaşlar üçün çətinlik yaradır. Əgər ekonom layihəli yeni binalar tikilərsə, vətəndaşların ev problemi aradan qalxa bilər. Belə olduğu halda mənzil üçün ilkin və aylıq ödənişlər az olar”.

**Ləman Əlizadə**

# Bakcell Zəngilanın Ağalı kəndində mağaza açdı

*19 may 2023-cü il tarixində Zəngilan rayonunun Ağalı kəndində yeni Bakcell mağazası fəaliyyətə başladı. Yeni Bakcell mağazasında Ağalı sakinlərinə şirkətin məhsul və xidmətlərinin geniş çeşidi, həmçinin mobil nömrələr və aksesuarlar təklif edilir. Mağazanın açılışında Bakcell şirkəti və yerli qurumların nümayəndələri ilə yanaşı Ağalı kəndinin sakinləri də iştirak edib.*



Açılış mərasimi xüsusi olaraq uşaqlar üçün hazırlanmış əyləncə proqramı ilə yadda qalıb. Ağıllı kəndin gənc sakinləri üçün xoş sürpriz kimi tədbirdə müxtəlif oyunlar və şən yarışlar keçirilib, uşaqlara maraqlı hədiyyələr təqdim edilib. “NEQSOL Holding”in tərkibinə daxil olan Bakcell şirkəti hazırda “Bakcell ilə ən sürətli ol” şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirir.

# Qanunsuz tapança gəzdirən keçmiş məhkum tutuldu

Hövsanda üzərində qanunsuz olaraq odlu silah gəzdirən şəxs saxlanılıb. DİN-dən SİA-ya verilən məlumata görə, Suraxanı Rayon Polis İdarəsinin 30-cü Polis Şöbəsinin əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında həyata keçirdikləri tədbir nəticəsində üzərində qanunsuz olaraq odlu silah saxlayan şəxs tutulub. Tədbir zamanı əvvəllər məhkum olunmuş, Hövsan qəsəbəsində yaşayan Tərlan Məmmədov saxlanılaraq Polis Şöbəsinə gətirilib. Onun üzərindən 1 ədəd kustar üsulla hazırlanmış atəşə yararlı “Retay F-29” markalı tapança aşkar olunaraq götürülüb. Tərlan Məmmədov odlu silahı bir neçə ay əvvəl əldə etdiyini, lakin polisə təhvil verməyərək özündə saxladığını bildirib.



Faktla bağlı 30-cu Polis Şöbəsində toplanan materiallar Suraxanı Rayon Polis İdarəsinə göndərilib, araşdırmalar davam etdirilir.


Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000